

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

"Rusiyanın sülhməramlılarını 2025-ci ildə Qarabağdan çıxaracağına inanıram"




3


# SƏS

№ 121 (6804)

13 iyul 2023-cü il.
Qiyməti 60 qəpik


# Azərbaycanın mövqeyi dəyişməzdir!



2

*Prezident İlham Əliyev: "Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır"*

# Aİ ABŞ-ın "kor vassalı" olmağı seçdi



7

## Qubad İbadoğlunun demokrat olması müəmmalı suallar yaradır



12

## İsrailli professor: "Azərbaycanın Zəngəzur dəhlizi üzərində suverenliyinin bərpası..."


Iran's rejection of growing Turkish influence in the region

The Zangezur Corridor is a key issue in the power struggle between Turkey and Iran that can affect the entire world. The story. Op-ed.

3

## Yaşıl çay piylənmənin qarşısını alır



16

## Fransa necə bölünür?




13

## "Ailə institutunda xoşagəlməz dəyişikliklər baş verir"

*"Valideynlər uşaqlarına ona görə hövsələsizdirlər ki, cəmiyyətdə bizim istədiyimiz və ya istəmədiyimiz bir çox dəyişikliklər baş verib. Lakin bu dəyişiklikləri nəzərə almaq istəmirik. Belə bir vaxtda ailə institutunun özündə xoşagəlməz dəyişikliklər baş verməkdədir.*



16

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyulun 12-də Bakıda Mərkəzi Nəbatat Bağının ərazisində aparılan abadlıq, yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış olublar. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma Mərkəzi Nəbatat Bağında həyata keçirilən yenidənqurma və tikinti işləri barədə məlumat verdi.**

# Bakıda abadlıq və yenidənqurma işləri geniş vüsət alıb

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mərkəzi Nəbatat Bağında aparılan işlərlə tanış olublar*



Bildirildi ki, yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 44,8 hektara çatdırılıb. Vaxtilə ərazidə yerləşən avtomobil təmiri boksları, bir neçə ictimai-iaşə obyekti və müxtəlif təyinatlı qanunsuz tikililər sökülüb. Hazırda bağın ərazisində yeni, müasir layihəyə əsasən geniş bərpa və yenidənqurma işləri müvəffəqiyyətlə davam edir. Layihəyə əsasən bağda müxtəlif növ yeni ağacların əkilməsi, müasir dizaynlı guşələrin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, Mərkəzi Nəbatat Bağında aparılan yenidənqurma işləri Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilir.

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan bu bağ elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Nəbatat Bağında 2500-dən çox ağac, kol, ot bitkiləri və sair var. Bağda 130-a yaxın nadir bitki növü qorunur. Ötən il Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Mərkəzi Nəbatat Bağı" publik hüquqi şəxs Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilib. Mərkəzi Nəbatat Bağında görülən işlərlə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

Xatırladaq ki, son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Aparılan yaşıllaşdırma işlərinə və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük dəstək verir.







# BQXK-nın "Le Monde" qəzetinə ikibaşlı cavabı


Le Monde
Consulter le journal
G. Zulfugarova
ACTUALITÉS ÉCONOMIE VIDÉOS DÉBATS CULTURE LE GOÛT DU MONDE SERVICES
INTERNATIONAL · CONFLIT AU HAUT-KARABAKH
Haut-Karabakh : l'Azerbaïdjan bloque l'axe vital reliant l'enclave à l'Arménie
Bakou a annoncé, mardi, la suspension de la circulation dans le corridor de Latchine, invoquant une activité de « contrebande » de la part de la branche arménienne de la Croix-Rouge.
Par Faustine Vincent
Publié hier à 20h00, modifié à 09h32 · Lecture 2 min. · Read in English
Offrir l'article
Article réservé aux abonnés
Le 2 mai 2023, check-point mis en place par Bakou à l'entrée du corridor de Latchine, seule voie de passage entre le Haut-Karabakh et l'Arménie, coupée le 11 juillet 2023 par l'Azerbaïdjan.
La pression augmente de nouveau dans l'enclave disputée du Haut-Karabakh.
Édition du jour
Daté du mercredi 12 juillet
OTAN : Erdogan se place au centre du jeu
Lire le journal numérique
Lire les éditions précédentes
Les plus lus

Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) "Le Monde" qəzetinin məlumatını dərhal təkzib edərək ona məxsus nəqliyyat vasitəsində "icazəsiz mal tapılmadığını" bildirib. Bununla belə, Cenevrədə yerləşən təşkilat əlavə edib ki, "təəssüf ki, işə götürülən dörd sürücü [onun] xəbəri olmadan müvəqqəti olaraq BQXK-nın emblemi olan öz avtomobillərində kommersiya mallarını daşımağa cəhd ediblər". Təşkilat "həmin şəxslərin BQXK-nın işçiləri olmadığını və onların xidmət müqavilələrinə dərhal xitam verildiyini" açıqlayıb.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Fransanın "Le Monde" qəzeti onun Bakının Beynəlxalq Qırmızı Xaç Komitəsinin Ermənistan bölməsinin qaçaqmalçılıq fəaliyyəti əsasında Laçın dəhlizində nəqliyyatın hərəkətini dayandırması ilə bağlı BQXK-ya müraciətinin cavabı kimi dərc edib.

Xatırladaq ki, "Le Monde" Ermənistanı Azərbaycan ərazisindəki separatçılarla birləşdirən yeganə quru yolun Azərbaycan tərəfindən bağlanması ilə bağlı məqalə yayımlayıb. Məqalədə bildirilir ki, BQXK-nın Ermənistan bölməsinə məxsus avtomobillərin nəzarət-buraxılış məntəqəsindən "çoxsaylı qaçaqmalçılıq cəhdləri"nə görə Azərbaycan bu addımı atıb. Ancaq "Le Monde" bu qaçaqmalçılıq cəhdlərini əks etdirən videonu təəssüf ki, yayımlamayıb.

Nədənsə, həmişə xəbərlərinin "obyektivliyinə" cəhd edən "Le Monde" BQXK ilə müqavilə bağlayan bu işçiləri niyə özününkü hesab etmədiyini aydınlaşdırmayıb. Əgər onların müqaviləsi varsa, deməli BQXK buna görə məsuliyyət daşıyır. Həmçinin "Le Monde" həmin şəxslərin avtomobillərinin "müvəqqəti BQXK emblemini" necə daşıya bilməsini də aydınlaşdırmağı unudub. Humanitar xarakterli hesab edilən bu beynəlxalq təşkilatın ən həssas nöqtələrdə belə kobud səhvlərə yol verməsi isə bağışlanmazdır.



# “Dostluq və qardaşlıq münasibətlərimiz bütün sahələrdə uğurla inkişaf edir”

## *Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədrini qəbul edib*

***İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu qəbul edib. Numan Kurtulmuş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.***

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Türkiyədə keçirilmiş prezident və parlament seçkilərində qələbə münasibətilə bir daha təbriklərini çatdırdı.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Numan Kurtulmuşun səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyi qeyd olundu. Söhbət zamanı Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsinin, bu təşkilat və TÜRKPA formatında əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyi vurğulandı.

# Azərbaycan ilə Ermənistan arasında delimitasiya üzrə komissiyaların dördüncü görüşü keçirilib



***İyulun 12-də Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sərhəddə Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistanın Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın dördüncü görüşü keçirilib.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər Azərbaycanın və Ermənistanın rəhbərləri səviyyəsində müxtəlif formatlarda əldə edilən razılaşmaları nəzərə alaraq, delimitasiya məsələlərinin müzakirəsini davam etdirib, bir sıra təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər.

Tərəflər, həmçinin komissiyaların növbəti görüşünün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

# “Rusiyanın sülhməramlılarını 2025-ci ildə Qarabağdan çıxaracağına inanıram”

***“Bildiyiniz kimi, razılığa görə, Rusiya sülhməramlıları 2025-ci ilə qədər müəyyən olunan yerlərdə qalmalıdır. 2025-ci ildə isə bu yerləri tərk edəcəkdir, anlaşma bu cür olub.”***




Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vilnüsdə NATO liderlərinin sammitindən sonra keçirilən mətbuat konfransında Qarabağda Rusiya sülhməramlılarının qalma müddətinin bitməsi ilə bağlı sualı cavablandırarkən deyib. “Mən də Rusiyanın bu anlaşmaya sadiq qalacağına inanıram. Hörmətli qardaşım İlham Əliyev də bu məsələni yaxından izləyir”, - deyə Ərdoğan əlavə edib.

# İsrailli professor: “Azərbaycanın Zəngəzur dəhlizi üzərində suverenliyinin bərpası...”

İsrailin ərəb dünyası və İran üzrə ən tanınmış eksperti, bu ölkənin nüfuzlu Bar-İlan Universitetinin şərqşünaslıq elmləri üzrə professoru və Yaxın Şərq və İslam Tədqiqatları Mərkəzinin direktoru, Begin-Sadat Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçısı, Tel-Əviv Universitetinin mühazirəçisi doktor Mordexay Kedar ölkəsinin geniş oxucu kütləsinə malik “Israel National News” qəzetində dərc olunan məqaləsində Azərbaycanla bağlı maraqlı fikirlər qələmə alıb. İsrailli tədqiqatçı öz yazısında vurğulayır ki, Zəngəzur dəhlizi Türkiyə ilə İran arasında güc mübarizəsində bütün dünyaya təsir edə biləcək əsas məsələdir.


Israel National News › Opeds › Iran's rejection of growing Turkish influence in the region

Iran's rejection of growing Turkish influence in the region

**The Zangezur Corridor is a key issue in the power struggle between Turkey and Iran that can affect the entire world. The story. Op-ed.**

Dr. Mordechai Kedar / Jun 29, 2023, 7:26 AM (GMT+3)

Iran Turkey Dr. Mordechai Kedar

### “İran bölgədə artan Türkiyə təsirinə qarşı”

Məqalədə qeyd olunub ki, Qarabağda 44 günlük müharibəyə son qoyan üçtərəfli Bəyanata əsaslanan Azərbaycan Türkiyə ilə həmsərhəd ərazisi olan Naxçıvanla onun özünü birləşdirəcək müasir nəqliyyat dəhlizinin (avtomobil və dəmir yolu) yaradılması üçün Ermənistanın cənubunda, İranla sərhədi boyunca zolağın əldə olunmasını, bu dəhlizin - Zəngəzur dəhlizinin onun suverenliyində olmasa da, nəzarətində olmasını tələb edir. Azərbaycan və Ermənistan arasında gələcək sülh sazişinin bir hissəsi kimi Zəngəzur dəhlizi dənizə çıxışı olmayan Naxçıvan vilayətini Azərbaycanın əsas hissəsi, habelə Azərbaycanı Türkiyə və Aralıq dənizi ilə birləşdirə bilər. Molla rejimi isə Zəngəzur dəhlizinin Azərbaycanın suverenliyinə qaytarılmasının onu Ermənistan və Rusiyadan ayrı salacağına, rejimin Cənubi Qafqazdakı təsirini kəskin şəkildə azaldacağına və Türkiyənin bölgədəki təsirini xeyli artıracağına görə qəti şəkildə əleyhinədir.

“Göstərilən səbəbdən Azərbaycanın adıçəkilən dəhliz üzərində suverenliyinin bərpası ölkə üçün böyük əhəmiyyət kəsb edir və Türkiyə bu mühüm məsələdə Bakını dəstəkləyir. Zəngəzur dəhlizi üzərində suverenliyinin bərpası Azərbaycanın uzunmüddətli təhlükəsizliyi üçün böyük əhəmiyyət kəsb etsə də, ayətullah rejimi buna qəti etiraz edir, çünki sözügedən variantın reallaşması hərbi nüvə proqramına və terror fəaliyyətinə görə tuş gəldiyi sarsıdıcı sanksiyalar qarşısında Tehran rejimini xarici dünyaya çıxış üçün can damarı olan Ermənistanla sərhəddən məhrum edəcək.”- müəllif belə yazır.

Məqalədə sözügedən məsələ ilə bağlı Rusiyanın da maraqları təhlil olunub. İsrailli professorun fikrincə, Azərbaycan-İran münasibətlərinin hazırkı vəziyyəti fonunda Zəngəzur dəhlizinin Azərbaycana qaytarılması Moskvanın öz ərazisini dəmir yolu ilə İran vasitəsilə Hind okeanına birləşdirmək planlarını puça çıxarır. Əgər hazırkı vəziyyət belə davam edərsə, o zaman Rusiyanın İranda infrastruktur layihələrini maliyyələşdirməklə bağlı bütün planları, eləcə də Ermənistanın İranı dəstəkləmək imkanları iflasa uğraya bilər.

Eyni zamanda, diqqətə çatdırılıb ki, Rəcəb Tayyib Ərdoğanın yenidən Türkiyə Prezidenti seçildikdən sonra Azərbaycana bu yaxınlarda gerçəkləşdirdiyi səfər zamanı Ankaranın Zəngəzur dəhlizinin bərpasında Bakını bir daha dəstəklədiyini bəyan etməsi neftlə zəngin bölgəyə nəzarət uğrunda Türkiyə ilə daim rəqabət aparan İslam Respublikasını xeyli qıcıqlandırıb. Eyni zamanda, Türkiyə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada konsulluq açacağını bəyan edib və bu, mollaların üzünə növbəti sillədir, çünki sözügedən bəyanatın reallaşması işğalçı Ermənistanı daim dəstəkləmiş Tehran rejimi üçün Azərbaycanın Qarabağ bölgəsi üzərində nəzarətini möhkəmləndirməsi anlamına gəlir.

Müəllif hesab edir ki, Ərdoğanın Azərbaycana son səfəri İranın Qafqaz regionunda olan-qalan təsir dairəsini qoruyub saxlamaq istəyinə böyük zərbədir və Təl-Əvivdə Azərbaycan səfirliyinin açılması ilə yeni mərhələyə qədəm qoymuş İsrail-Azərbaycan əməkdaşlığı, son prezident seçkilərdən sonra Türkiyənin beynəlxalq aləmdə, o cümlədən regionda gücünün aşkar artması kimi amilləri Tehrandakı molla rejimi öz gələcəyinə təhlükə kimi görür. Məqaləni ətraflı şəkildə aşağıdakı linklərdən oxumaq mümkündür:

https://www.israelnationalnews.com/news/373427

# Azərbaycanın mövqeyi dəyişməzdir!

***Məlum olduğu kimi, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan-Ermənistan sülh gündəliyi ətrafında intensiv görüşlər davam edir. Və bu gün İkinci Qarabağ müharibəsinin Qalib Sərkərdəsi, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının Ermənistanla aparılan sülh danışıqları prosesində ortaya qoyduğu dəyişməz, qətiyyətli mövqeyi bir daha göstərir ki, məğlub ölkə ilə yalnız məlum 5 prinsip əsasında hazırlanılan sazişə imza atılacaq. Çünki Azərbaycan Qalib tərəf kimi prosesi öz diktəsi ilə idarə edir, Ermənistan isə müxtəlif bəhanələr gətirib vaxt udmaq istəsə də buna nail ola bilmir. Səbəb isə bölgədə marağı olan güclər Cənudi Qafqazda sülhün və təhlükəsizliyin tez bir zamanda təmin olunmasında israrlıdırlar. Və bu gün dünya birliyi də Azərbaycanın haqlı tələbini aydın şəkildə dəstəkləyir. Tərəflər arasında aparılan sülh danışıqları isə həm Rusiyada, həm də Avropada reallaşır.***

Bəli, bu gün Azərbaycanın mövqeyi dəyişməzdir. Azərbaycan Prezidenti İlham Əliyev bütün görüşlərində, müsahibələrində dönə-dönə Azərbaycanın mövqeyinin dəyişməz olduğunu vurğulayır.

### "SÜLH DANIŞIQLARI İLƏ BAĞLI MÖVQEYİMİZ AYDINDIR"

2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev sülh danışıqları ilə bağlı Azərbaycanın mövqeyinin dəyişməz olduğunu vurğulayaraq bildirib ki, irəli sürülən prinsipə əsaslanan sülh müqaviləsi imzalana bilər: "Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır. Hesab edirəm ki, bu prinsiplə, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsi imzalana bilər".

Belə imkanların olduğunu hesab etdiyini vurğulayan dövlətimizin başçısı deyib: "Son danışıqlar raundları və bir neçə gündən sonra nəzərdə tutulan yüksək səviyyəli təmaslar bir məqsədi güdür ki, biz sülh anlaşmasına daha da yaxınlaşaq. Biz bunu arzulayırıq, bunu təşəbbüskar kimi irəli sürmüşük".

Dövlətimizin başçısı deyib ki, ancaq hər şey bizdən asılı deyil, qarşı tərəf də buna hazır olmalıdır və sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə də keçirməlidir.

Bəli, iki ilə yaxındır ki, davam edən və iki istiqamətdə aparılan Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərin normallaşması prosesinin uzanması Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə əlaqədardır. Belə ki, 2021-ci ilin dekabrından başlayaraq sülhyaratma prosesində vasitəçilik edən Avropa İttifaqının moderatorluğu ilə baş tutan danışıqların nəticə verməməsinin əsas səbəbi Ermənistanın mövqesizliyidir. Bu ölkə ikiüzlü siyasətini davam etdirməklə, nələrəsə nail olmaq fikrindədir. Bir yandan Brüssel prosesinə sadiq olduğunu bildirən, hətta görüşlərdə proqressiv irəliləyişlərə belə "hə" deyən rəsmi İrəvan sonradan tamam fərqli şeylər danışır. Bir tərəfdə sülhdən, ərazi bütövlüyünün tanınmasından, delimitasiya və demarkasiyanın vacibliyindən bəhs açan Ermənistan nəticədə üzərinə götürdüyü öhdəliklərə riayət etmir. Azərbaycan torpaqlarında hələ də erməni silahlı birləşmələri mövcuddur. Eyni zamanda, həmin silahlı birləşmələr vaxtaşırı müəyyən təxribatlar törədir və sülh prosesinin yekunlaşmasına mane olur. Bu qeyri-müəyyənlik isə bütövlükdə, prosesin sürətlənməsini, sülhün və təhlükəsizliyin təmin olunmasını ləngidir. Amma bu kimi "mövqe" Ermənistan üçün yaxşı gələcək vəd etmir.

### "ƏGƏR ERMƏNİSTAN SÜLH İSTƏMİRSƏ SÜLH OLMAYACAQ"

Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxış edən Prezident İlham Əliyev bildirib ki, əgər Ermənistan sülh istəmirsə sülh olmayacaq. Tarixdən bilirik ki, sülh sazişini imzalamayan ölkələr də var. Bu, nə Ermənistan, nə də region üçün yaxşı olmayacaq. Tarix onlara dərs verməlidir...



*Prezident İlham Əliyev: "Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır"*

Amma bu ölkə anlamır ki, Azərbaycan torpaqlarını artıq işğaldan azad edib, nə "Dağlıq Qarabağ" var, nə də "status". İndi reallıq budur ki, Azərbaycan işğaldan azad etdiyi torpaqlarla bağlı özü qərar verir, Ermənistan kimi kiminsə qulu-vassalı deyil. Tərəflər arasında aparılan sülh danışıqları həm Rusiyanın, həm də Avropa İttifaqının vasitəçiliyi ilə reallaşır. Tərəflər arasında intensiv təmaslar yaradılıb. Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə 3, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsləri ilə 5 görüş keçirilib. Bu formatlarda tərəflər arasında keçirilən görüşlərdə müəyyən razılaşmalar əldə olunub, müvafiq bəyanatlar da imzalanıb. Düzdür, imzalanan bütün bəyanatlarda Azərbaycanın diplomatik üstünlüyü özünü göstərib. Son iki bəyanatda yer alan müddəalara əsasən isə Ermənistan Qarabağın Azərbaycan ərazisi olduğunu rəsmən təsdiqləyib. Qəbul edilmiş bəyanatlar da isbat etdi ki, danışıqlar tam olaraq rəsmi Bakının diktəsi fonunda keçir və sənədlər Azərbaycanın istəklərinə uyğun formada qəbul olunur.

Göründüyü kimi, yenə də gündəliyi Azərbaycan Prezidenti müəyyənləşdirir. Bütün ağrılı məqamlara, işğalın ağır fəsadlarına, törədilmiş erməni vəhşiliklərinə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyev bölgənin gələcəyi naminə sülh gündəliyi təqdim edir. Həm də Ermənistanın düşdüyü sosial-iqtisadi bataqlıqdan qurtulması üçün yol göstərir.

Bunun ardınca isə Prezident İlham Əliyev son zamanlar aparılan danışıqlara Fransanın müdaxilə etməsini və Azərbaycana qarşı qərəzli qətnamə qəbul etməklə Ermənistana dəstək göstərməsini faktlar əsasında ortaya qoydu. Eyni zamanda bildirdi ki, Ermənistan və onun havadarlarının istəyi sülh sazişinin imzalanması deyil, danışıqlar prosesinin uzanmasıdır: "Sülh prosesi sülh sazişinin imzalanmasına gətirib çıxaracaq və onlar etiraf etməli olacaqlar ki, Qarabağla bağlı heç nə yoxdur və istər Moskvada, istər Soçidə və ya Brüsseldə qəbul edilən bütün sənədlərdə Qarabağa istinad edilmir. Ona görə də ola bilsin ki, Ermənistan tərəfi heç bir nəticəyönümlü ssenari olmadan prosesi sonsuz etmək üçün işğal zamanı da istifadə etdiyi köhnə taktikadan istifadə etmək qərarına gəlib. Beləliklə, əgər bu onların seçimidirsə, biz nə edə bilərik. Biz onları imzalamağa məcbur edə bilmərik. Bu o deməkdir ki, sülh müqaviləsi olmayacaq, bu o deməkdir ki, sülh olmayacaq və sülh yoxdursa, onda nə olacaq?!".

Həqiqət budur ki, qalib tərəf kimi Azərbaycan sülh sazişinin imzalanması üçün əlindən gələni, öhdəsinə düşəni reallaşdırmağa tam hazır vəziyyətdədir. Və Azərbaycan Prezidenti İlham Əliyevin bu mesajı Ermənistana 2 yol göstərir: Ya 5 prinsipi qəbul edib sülh sazişi imzalanmalı, ya da "dəmir yumruq" yenidən işə düşməlidir. Təbii ki, 44 günə diz çökən Ermənistan bir daha ağır zərbə almaq istəməz. Bu, Ermənistanın hərtərəfli çöküşü, məhvi ilə nəticələnməsi deməkdir. Və bu gün Ermənistan anlamalıdır ki, başqa çıxış yolu yoxdur və Azərbaycanla sülh müqaviləsi imzalanmalıdır. Çünki Ermənistanın qeyri-konstruktiv mövqeyi regionda təhlükəsizliyin təmini ilə yanaşı, bu dövlətin gələcək inkişafını da yubadır. Onsuz da ötən 30 illik işğal dövründə Ermənistan iqtisadi - siyasi müstəvidə çox şey itirib - bu dövlət müstəqil olmaq şansını itirib. Yenidən eyni metodla sülhə mane olmaq istəyi isə indiki halda Ermənistana daha böyük zərbə vura bilər. Onsuz da üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyən Ermənistan Avropa İttifaqının moderatorluğu ilə keçirilən görüşlər zamanı da səsləndirdiyi vədlərdən boyun qaçırmaqla özünü dalana dirəyib - artıq reallıqdan qaçmaq mümkün deyil. O zaman əgər .

### "ERMƏNİSTAN SÜLH İSTƏYİRSƏ, SİLAHLI QÜVVƏLƏRİNİ QARABAĞDAN ÇIXARMALIDIR"

Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Nazirlər görüşündə də çıxışı zamanı bildirib ki, münaqişə başa çatdıqdan az sonra Azərbaycan Ermənistanla birbirinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipini təqdim edib.

"Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur", - deyən dövlətimizin başçısı vurğulayıb ki, əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərksilah edilməli və tərxis olunmalıdır.

Bəli, artıq rəsmi Bakının səbri tükənir, ən qısa zamanda sülh sazişinin imzalanmasında israr edir; Gözlənilən hərbi təhlükə qarşısında aciz qalan Paşinyan hakimiyyəti yeganə və məcburi seçim variantı ilə üzləşib...

Göründüyü kimi, Azərbaycan Prezidentinin açıqlamasında Ermənistana yönəlik açıq xəbərdarlıq mesajı da yer alır. Dövlət başçısı Ermənistanı sülh və savaş arasında prinsipial seçim etməyə çağırır. Sülh sazişi imzalanana qədər sülh vəziyyətinin olmayacağını bəyanlayır. Yəni, Ermənistan sülh istəyirsə, sülh sazişini mütləq ən qısa zaman ərzində imzalamalıdır. Azərbaycan Prezidenti rəsmi İrəvandan sülh sazişi ilə bağlı müsbət reaksiya gözlədiyini qabardır: "Çünki, əgər, bizim Ermənistanla sülh sazişimiz olmasa, bu, o deməkdir ki, sülh də yoxdur. Təkcə iki ölkə arasında deyil, həm də Cənubi Qafqazda sülh yoxdur. Bizə sülh və dayanıqlı inkişaf, proqnozlaşdırılma, sıfır müharibə riski lazımdır, bizə müharibə lazım deyil. Bizə əvvəl də müharibə lazım deyildi".

Bəli, həqiqət budur ki, qalib tərəf kimi Azərbaycan sülh sazişinin imzalanması üçün əlindən gələni, öhdəsinə düşəni reallaşdırmağa tam hazır vəziyyətdədir. Yəni Azərbaycan Prezidenti Vətən müharibəsində əldə edilən zəfərdən sonra bölgədə sülh və əməkdaşlığa nail olmaq üçün postmüharibə dövründə də sülh kontekstində regionla bağlı çətin geosiyasi maraqlar şəraitində diplomatik liderliyini, məharətini sərgiləməyə davam edir. Savaşdan sonra hərbi potensialını gündən-günə gücləndirən, sərhəddəki mövqelərini daha da möhkəmləndirən Azərbaycan sülhün, qarşılıqlı olaraq bir-birlərinin ərazi bütövlüyünü tanıyaraq Cənubi Qafqazda sabitliyin bərqərar olması üçün addımlar atır. Bununla yanaşı, prosesin alternativinin nə ilə nəticələnəcəyini də Ermənistana göstərməklə deyir ki, sülh sazişinin imzalanmaması Ermənistan üçün böyük fəlakət olacaq: Ya 5 prinsipi qəbul edib sülh sazişi imzalanmalı, ya da "dəmir yumruq" yenidən işə düşməlidir.

Bir sözlə, Azərbaycan öz sülh təşəbbüslərinə adekvat cavab tələb edir və bizim buna tam haqqımız çatır. Çünki haqq-ədalət də, beynəlxalq hüquq da bizim tərəfimizdədir. Biz heç kimin ərazisinə göz dikmirik və öz halal torpaqlarımızın bir qarışını da heç kəsə verməyəcəyik. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplmatik siyasətinin reallığıdır.

***RƏFİQƏ HÜSEYNOVA***

# İstanbulda “Heydər Əliyevin həyatının 100 anı” kitabının təqdimatı keçirilib

***Türkiyənin İstanbul şəhərində müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasi xadim və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə “Ulu Öndər Heydər Əliyevin irsinə həsr olunmuş kitabların nəşri” beynəlxalq layihəsi çərçivəsində Azərbaycan və ingilis dillərində işıq üzü görmüş “Heydər Əliyevin həyatının 100 anı” (100 moments of Heydar Aliyevs life) kitabının ingilis dili versiyasının təqdimat mərasimi keçirilib.***



“Türkiyə Jurnalistlər Birliyinin” Mətbuat Muzeyində “Mərmərə Qrupu” Strateji və Sosial Araşdırmalar Vəqfi ilə “Azərbaycanım” beynəlxalq jurnalı tərəfindən birgə təşkil olunan təqdimatda tanınmış ictimai-siyasi xadimlər, rəsmi şəxslər, dövlət adamları, deputatlar, elmi və mədəniyyət ictimaiyyətin təmsilçiləri, KİV nümayəndələri iştirak ediblər.

Əvvəlcə müasir müstəqil Azərbaycan Respublikasının memarı Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün, eləcə də qəhrəman şəhidlərimizin əziz xatirələri ehtiramla yad olunub. Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Təqdimat mərasimində çıxış edən Beynəlxalq Elmlər Akademiyasının müxbir üzvü, “Heydər Əliyevin həyatının 100 anı” kitabının Redaksiya Heyətinin sədri, nəşrin müəllifi, tanınmış publisist Emil Nəsirli diqqətə çatdırıb ki, dərin mənalı ömür yaşayan Ümummilli Lider Heydər Əliyev həyatının əsas hissəsini Azərbaycanın müstəqilliyinə, ölkəmizin inkişafına, xalqımızın firavan gələcəyinə həsr edib. Ona görə də qədirbilən Azərbaycan xalqı böyük oğlunun əziz xatirəsini hər zaman qəlbində sevgi ilə yaşadır. Dünyaşöhrətli dövlət xadimi siyasi hakimiyyətinin ikinci hissəsində Azərbaycanın müstəqilliyi üçün nə qədər çalışdısa, bir o qədər də Türk dünyasının birliyi, vəhdəti və birgə inkişafı, Azərbaycan-Türkiyə qardaşlığı üçün böyük səylər göstərdi. Bütün bu xidmətlər türk xalqının əbədi yaddaşında möhtəşəm Heydər Əliyev abidəsi ucaldıb.

Çıxışında Ulu Öndər Heydər Əliyevlə bağlı xoş xatirələrini bölüşən “Mərmərə Qrupu” Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri professor Akkan Suver əminliklə bildirib ki, Ümummilli Liderimizin müəyyən etdiyi uzaqgörən dövlətçilik strategiyası onilliklər boyu Türk dünyasının birliyinə, Türkiyə-Azərbaycan qardaşlığının inkişafına töhfələr verəcək.

Xatırladaq ki, ümumilikdə 553 səhifədən ibarət olan “Heydər Əliyevin həyatının 100 anı” kitabı Azərbaycanın xilaskar oğlunu Ümummilli Lider zirvəsinə ucaldan real işlərin, gərgin əməyini, yüksək insani keyfiyyətlərini, vətəninə və xalqına bağlılığını özündə ehtiva edir. Azərbaycan və ingilis dillərində yazılaraq nadir üslubda nəfis tərtib olunan rəngli nəşrin əvvəlində Azərbaycanda 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi” haqqında Azərbaycan Prezident Sərəncamının mətni iki dildə yerləşdirilib. Mündəricat, ön söz, giriş və ədəbiyyat siyahısından ibarət nəşrdəki məqalələr və nadir fotolar Ümummilli Lider Heydər Əliyevin xalq, vətən, ölkə və dövlət qarşısındakı misilsiz xidmətlərini tərənnüm edir. Nəşrdəki materiallar Ulu Öndərin bəşəri prinsipləri barədə oxucuda real təsəvvür yaradır. “Heydər Əliyevin həyatının 100 anı” kitabının ilk təqdimatı mayın 5-də Bakıda, Atatürk Mərkəzində keçirilib. Xarici ölkələrdəki təqdimatlar isə İstanbuldan sonra Paris və Cenevrə şəhərlərində olacaq.

# Gənclər Heydər Əliyev irsini dərindən öyrənməlidirlər

## *YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib*



***“Heydər Əliyev İli” çərçivəsində iyulun 12-də Bərdə rayonunda Yeni AzəArbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvlərinin gənclərlə görüşü keçirilib. Görüşdə YAP Veteranlar Şurası sədrinin müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, YAP Veteranlar Şurasının üzvü, “91”lərdən olan Sudeyif İmamverdiyev və Bərdə, Tərtər, Ağcəbədi, Füzuli, Ağdam, Xocəvənd, Laçın rayonlarını təmsil edən fəal gənclər iştirak ediblər.***





Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb. Tədbir iştirakçıları Şəhidlər xiyabanını ziyarət edərək Şəhidlər abidəsi önünə əkil qoyublar. Sonra mülki şəhidlərin xatirəsinə salınmış Xatirə lövhəsinin önünə tər qərənfillər düzərək xatirələrini ehtiramla anıblar.

Daha sonra Heydər Əliyev parkında təşkil olunmuş sərgiyə baxış keçirilib və şəhər 3 saylı tam orta məktəbin şagirdləri kompozisiya təqdim ediblər. Tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Tədbiri giriş sözü ilə açan YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya “Heydər Əliyev İli” ilə əlaqədar YAP-ın silsilə tədbirlər keçirdiyini xatırladıb. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini deyən Faqət Şadlinskaya dahi şəxsiyyətin ideyalarının gənc nəslə aşılanmasının vacib olduğunu söyləyib. O bildirib ki, Heydər Əliyev fenomeninin dövlətçilik tariximizdə müstəsna rolunun gənclər tərəfindən hərtərəfli öyrənilməsi vacibdir.

YAP Veteranlar Şurası sədrinin müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova bütün həyatını xalqının xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndərin Vətən və xalq qarşısındakı misilsiz xidmətlərindən danışıb. Heydər Əliyev bütün həyatını doğma xalqına həsr etmiş, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş dahi şəxsiyyətdir. O xatırladıb ki, Azərbaycanın məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığını görən 91 nəfər ziyalı Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını və ona rəhbərlik etməsini təklif etdi. Çünki xalqın ümidi məhz Heydər Əliyevə idi. Ulu Öndərin cavabı müsbət oldu, 1992-ci ilin noyabr ayının 21-də Yeni Azərbaycan Partiyası yaradıldı, 1993-cü ilin iyun ayında isə Ümummilli Lider hakimiyyətə qayıdaraq Azərbaycanı parçalanmaqdan xilas etdi.

YAP Veteranlar Şurasının üzvü, “91” lərdən olan akademik Sudeyif İmamverdiyev vurğulayıb ki, gənclərlə görüşün keçirilməsində məqsəd dahi şəxsiyyət Heydər Əliyevin əbədiyaşar ideyalarının gənclərə aşılanmasıdır. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. O, gəncləri Heydər Əliyevin zəngin irsini dərindən öyrənməyə çağırıb.

S.İmamverdiyev qeyd edib ki, hər bir xalqın tarixində müstəsna rol oynayan, xilaskarlıq missiyası həyata keçirən tarixi şəxsiyyətləri var. Azərbaycan xalqının tarixində də məhz belə bir şəxsiyyət Ümummilli Liderimiz Heydər Əliyevdir. Akademik bildirib ki, Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir və dünyada güclü, nüfuzlu dövlətə çevrilib.

# Küləklər ölkəsinin qadın poeziyası



**2019**-cu ildə Tampere şəhərindəki “Palladium Kiryat” nəşriyyatında Məhsəti Gəncəvidən günümüzə qədər olan Azərbaycan qadın poeziyasının fin dilinə tərcümə edilmiş antologiyası çap olunub. Elə həmin yerdə, 1920-ci ilin yayında Beynəlxalq Poeziya Festivalında onun təqdimatı böyük uğurla keçdi. Orkestrin müşayiəti ilə aktrisanın ifasında Azərbaycan şairələrinin şeirləri ilhamla səsləndirilib. Kitab Finlandiya oxucuları arasında, xüsusən də qadın oxucular arasında böyük maraq doğurdu, o, satılıb qurtardı və indi onu ancaq kitabxanalarda tapmaq olar. Amma indiyə qədər bilmirdim ki, məşhur fin yazıçısı, şairə Rimma Erkko eyni vaxtda antologiyanın nəşrinə aşıq poeziyamıza heyranlığını ifadə etdiyi məqalə ilə cavab verib. Amma hələ də aşıq şairələrin ifasını görüb eşidə bilsəydi, onda təəssüratları daha da parlaq olardı. Təsadüfi deyil ki, aşıq sənəti YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına salınıb. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi və təşəbbüskarı olduğu Heydər Əliyev Fondu aşıq poeziyasının təbliği istiqamətində böyük işlər görmüş və görməkdədir.

Bu yaxınlarda “Küləklər ölkəsinin qadın poeziyası” məqaləsini aşkar etdim, həmyerlilərimi də bu məqalə ilə tanış etmək qərarına gəldim. Rimma Erkko qədim şairlərimizə o qədər heyran olmuş, kitabın tərtibatına o qədər valeh olmuşdu ki, onun ikinci hissəsində təqdim olunan müasir qadın poeziyasına praktiki olaraq toxunmamışdır, lakin qeyd etmişdir ki, o, daha geniş şəkildə təqdim edilməli idi, ayrıca topluda. Yaxşı, ümid edək ki, Finlandiya nəşriyyatları onun təklifi ilə maraqlanacaqlar.

**Tahirə Cəfərova,**
Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi.

**Rimma ERKKO**

“Bir az ağlayacağam” Azərbaycan qadın poeziyasının antologiyası haqqında (Tərtib və Fin dilinə tərcümə edən Tahirə Cəfərova)

“Gedib bir az ağlayacam” – orta əsrlərdən bu günə qədər Azərbaycan qadın mahnı poeziyasının antologiyası.

Kitaba daxil edilən mətnlərin ən qədimi folklor ənənəsinə görə sonrakı qeydlərdə qorunub saxlanılan və buna görə də yazılı forma almış şeirlərdir. Kitabda birincisi XII əsrdə fəaliyyət göstərmiş, ən gənci isə 1984-cü il təvəllüdlü şairə xanımlar təqdim olunur. Təəccüblüdür ki, nisbətən kiçik kolleksiyada müxtəlif əsrlərin qadınlarının mahnı yaradıcılığını bu qədər geniş və çoxşaxəli, təkcə bir kitabın üz qabığıyla deyil, həm də bir ənənə ilə birləşdirən şəkildə təqdim etmək mümkün olub.

Yaşanmış haqsızlıqlar, zülm haqqında açıq lirik etiraflar.

Mövzuya dərindən bələd olan müəllifin yazdığı ön söz, mətnlərdə mədəni reallıqların əlçatan izahatları, eləcə də şairələrin hər biri haqqında bioqrafik məlumatlar bugünkü Fin oxucusu üçün ən əhəmiyyətli olanı ortaya qoyur. Və təbii ki, ilk növbədə, necə olmalıdır, şeirlər öz sözünü deyir. Tərcümə çox peşəkarlıqla edilib. Tərcüməçi Tahirə Cəfərova Bakıdandır, lakin 1980-ci illərdən Finlandiyada yaşayır. Bundan əlavə, bu məcmuə şairələrin də təmsil olunduğu Azərbaycan poeziyasının kifayət qədər geniş panoramasını açan onun redaktorluğu ilə nəşr edilmiş “Gövhəri laməkan mənəm” kitabını açıq şəkildə davam etdirir. Ən qədim lirik şeirlərdən bəziləri bir qədər yarımçıq görünə

## Tərcüməçidən

bilər, lakin bu, bizə gəlib çatan nəğmə irsinin natamamlığından irəli gəlir.

Nəşr olunmuş kitab ifadəli və səxavətlə təsvir edilmişdir (lakin çox təəssüf ki, rəsmlərin götürüldüyü mənbələr göstərilmir). Və demək lazımdır ki, bütövlükdə bu kiçik antologiya danılmaz heyrətamiz, məhəbbətlə hazırlanmış mədəni məhsuldur. Bundan əlavə, o, Azərbaycan poeziyasını və daha geniş mənada mədəniyyətini əlçatan və gözəl şəkildə təqdim edir, lakin ən əsası, fin oxucusuna hələ də məlum olmayan şairələrin nüfuzlu lirikalarını təqdim edir. Bundan əlavə, kitabda müsəlman dünyasında qadın hüquqlarının xüsusiyyətləri açıqlanıb. İçərisində zərrə qədər də siyasi pamfletizm eyhamı belə olmasa da, topluya daxil olan şairələrin bir çoxu yaşadıqları haqsızlıqları birbaşa və cəsarətlə etiraf edirlər. Yenə də bu, ilk növbədə, hisslərdən, qadın ruhundan bəhs edən əsl poeziya, ürəkdən gələn lirikadır.

**Gözəllik və faciəli tale həsrəti**

Kitab boyu, uzaq XII əsrdən başlayaraq kəsişən motivlər keçir - bütün şairələr gözəllik və azadlıq istəyindən, həyatda öz yerini tapmaqdan, sevginin sevincindən və kədərindən danışırlar. Və təbiət həmişə onları müşayiət edir, sanki qadınların təcrübələrini əks etdirir. Ən qədim poetik əsərlərdə belə lirik münasibətin varlığını görmək olar.

Təbii ki, orta əsrlər poetik mətnlərinin fərdiliyi öz təbiətinə görə sentimental, hətta həssasdır. Ancaq onlar daxili aləmə deyil, ətrafa yönəldilmişdir. Şairənin görünüşü xəyalpərəstliklə rənglənsə də, bəsirətsiz deyil. Bu misralarda qadınların adətən üzlərini gizlətməyə, məişət tənhası olmağa məcbur olduqları o qədim dövrlərdə də şairələrə xas olan açıq ifadə olunan həssaslıq bu misralarda heyrətlənməyə bilməz. Buna baxmayaraq, o vaxtkı müsəlman cəmiyyətində bir qadın məşhur şairə - aşıq ola bilər, hətta şərab içməyi tərənnüm edir, cinsiyyətini gizlətmir, həyatdan həzz almaq hüququnu öz sözü ilə təsdiqləyirdi. Məsələn, ilk Azərbaycan şairlərindən olan Məhsəti Gəncəvi (1141-1209) qorxmadan bəyan edir:

***Dur çəngi dinləyək, bir ülfət qataq,***
***Şərab içək, utancaqlığın ataq.***
***Hiylə şişəsini çalıb daşlara,***
***Canamazı bir cam şəraba sataq.***

Gözəllik şairin qəddar dünyaya qarşı yeganə silahıdır və sonda yalnız bir anlıq həzz önəmlidir.

Anın gözəlliyi heyrətamiz poetik obrazlarda tərənnüm edilir, xüsusən də qəddar zorakılığın və faciənin hər yerdə mövcud olduğu o uzaq zamanda. Şairə Aşıq Bəsti (1836–1936) qadının faciəli taleyindən yığcam və ifadəli danışır:

***Gecə-gündüz ağlamaqdan***
***Qəm evində dustaq oldum.***
***Bu dünyanın dərdi-qəmin***
***Yarı böldüm, ortaq oldum.***

Vəhşiliklər, həyatın adi qəddarlığı şairələrdə kəskin hisslər yaradır, gözəlliyi daha qabarıq dərk edir, həyatın dəyərini hiss etdirir və buna görə də zorakılıqdan, ədalətsizlikdən daha cəsarətlə danışmağa vadar edir. Bir anlıq həzz də ona görə dəyərlidir ki, həyat kövrəkdir - hər kəs hər an ölə bilər.

**Modernist günlərə**

Kitabda klassikləri yeni zamanın trendlərindən ayıran, fərqli üslub gətirən xətt aydın şəkildə göstərilir. Və bu, toplunu sanki iki yerə bölsə də, müasir poeziyanın inkişaf məntiqini izləməyə imkan verir. O, əvvəlki hiss partlayışları ilə müqayisədə emosional olaraq daha soyuq görünür. Bu modernist dövr, görünür, hələ 1900-cü illərdə başlayır. Müasir poeziya nadir hallarda klassik nümunələrin ehtiraslı ifadəliliyinə yaxınlaşır. Yeni şairələr isə keçmiş aşıqların faciəsinə çatmır. Oxucu həmişə bu günün çalarlarına nəzər salmaq, yeni bədii şüurun incəliklərini tutmaq istəmir.

Başlığı bütün antologiyanın adına çevrilən, orada təqdim olunan şairələrdən ən gənci Leyla Əliyevanın “Gedib bir az ağlayacağam” adlı müasir şeiri ruhlandırıcı təsir bağışlayır. Bu köhnə klassik poeziyanın gözəl və faciəli qroteski ilə ortaq bir şey səslənir:

**Kimsə duyuq düşməsin**
**kədərimdən, qəmimdən,**
**Durub yol alım bağa-**
**astaca ağlamağa...**
**Götürüm ürəyimi**
**atım coşan ümmana-**
**dalğaların qoynuna.**
**heç dinə də bilməsin-**
**“ Niyə sığmır sinəmə?”**
**Gah tufan, gah rüzgar**
**apardıqca uzağa.**

Bununla belə, bəzən istisnalara baxmayaraq, müasir poeziyanın bölməsi sanki bir-birindən ayrılır. Ola bilsin ki, xronoloji ardıcıllıqla təqdim olunan ayrıca bir toplunu müasir poeziyaya həsr etmək daha məqsədəuyğun olardı. İndi kitab iki qeyri-bərabər hissəyə bölünür. Amma buna baxmayaraq, kifayət qədər diqqətə layiqdir və oxucunu Azərbaycan poeziyasının onun üçün açılmış səhifələrində düşünməyə sövq edir.

Kitabın əsas məziyyəti ondan ibarətdir ki, o, keçmiş əsrlərin qaranlığından füsunkar şairələr silsiləsi çıxarıb o dövrün qadınlarının taleyi, onların sevinc və kədəri haqqında düşünməyə vadar edir. Və bu gün az sayda şeir toplusu bunu bacarır.

***Rus dilindən tərcümə edən:***
***Afət Məmmədov,***
***Azərbaycan Respublikasının***
***Əməkdar***
***mədəniyyət işçisi.***

# Aİ ABŞ-ın "kor vassalı" olmağı seçdi

***Le Figaro yazır ki, NATO sammiti Aİ-nin son illərdəki "vassal" siyasətində dəyişiklik gətirməyəcək. Yeni güc balansı axtarmaq əvəzinə, Aİ iki təhlükəli seçim etdi: Avropanın müdafiə suverenliyindən imtina etdi və ABŞ ilə birlikdə kompromis üzərində Rusiyanı sındırmağı seçdi. Aİ ölkələri Rusiyaya qarşı sanksiyalar tətbiq edərək, Ukraynaya silah göndərməklə hər şeydə ABŞ xətti ilə getməyi qəbul edib. Onlar üçün Co Bayden indi ustaddır, Avropanın onunla münasibətləri korlamaq riskini götürmək fikri belə yoxdur.***





## NATO sammiti: Avropa Amerikanın hökmranlığı qarşısında diz çökdü

2023-cü il iyulun 11-də Vilnüsdə NATO-nun strateji sammiti keçirildi, amerikalılar və onların avropalı müttəfiqləri görüşdülər. NATO-nun illik sammitinə ev sahibliyi etmək üçün Litvanın seçilməsi təsadüfi deyil. Bu ölkənin iki qonşu kiçik Baltik respublikası kimi Rusiya ilə birbaşa sərhədi var. Bu arada NATO, Rusiyanın 2022-ci ilin fevralında xüsusi əməliyyata başladığı sərhədində yerləşən başqa bir ölkə olan Ukraynanı gündəlik olaraq silahlandırır, maliyyələşdirir və onu kəşfiyyat məlumatları ilə təmin edir. Diqqəti başqa istiqamətə yönəltmək üçün ritorik vasitədən istifadə edən Vladimir Putin isə öz auditoriyasının diqqətini NATO-nun hərəkətlərinə yönəldir. Öz xalqına başa salır ki, Rusiya hücum etmir, əksinə, Amerika və NATO-nun özünə və onun rus torpağına qarşı təcavüzkar planlarına qarşı özünü müdafiə edir. Bir sözlə, Vaşinqtonla Moskva arasında münasibətlər 1962-ci ildə Kuba "raket böhranı"ndan bəri indiki qədər gərgin olmamışdı, yalnız bu dəfə Karib hövzəsi deyil, Avropa ön plandadır.

Putinin Ukraynadakı hərəkətləri avropalıları çox qorxudur. Onlar indi seçim qarşısındadırlar: ya Fransanın qədimdə təklif etdiyi kimi Avropanın müstəqil müdafiəsini yaratmaq, ya da ABŞ-la vassal əlaqələrini gücləndirmək. İkinci variant seçildi. Avropalılar hər şeydə Amerikanın arxasınca getdilər: Rusiyaya qarşı sanksiyalar tətbiq etdilər, şirkətlərinin Moskvadakı filiallarını bağladılar, Rusiya qazından imtina edərək, onu bahalı Amerika şist qazı ilə əvəz etdilər. ABŞ-dan 100 milyard avrodan çox hərbi texnika aldılar. Amerikalılar Rusiya ilə əlaqəsi olmayan səbəblərdən Avropanın ABŞ-a ixracına mane olan və Avropa ilə ABŞ arasında yetmiş beş illik azad ticarətə son qoyan proteksionist "inflyasiya qanunu" qəbul etdikdə, Avropanın etirazı az oldu. Amerika avropalılar üçün bu gün ağadır və avropalılar usta ilə münasibətləri korlamaq riskinə getmirlər.

Bu NATO sammitindən əvvəl müttəfiqlər və onların himayədarı arasında başqa bir kiçik müzakirə mövzusu yarandı. Amerika Ukrayna ordusunu kaset bombaları ilə təmin etmək niyyətindədir. Bu sursat təhlükəlidir. Belə bir "kaset"də olan döyüş sursatının əhəmiyyətli bir hissəsi dərhal partlamır, yerdə və ya binaların içərisində qalır. Bu, uzunmüddətli perspektivdə yerli əhali üçün təhlükə yaradır. Fransanın Handikap İnternational qeyri-hökumət təşkilatı tərəfindən sənədləşdirilən 13306 kaset bombası qurbanlarının 98%-i mülki şəxslər, 27%-i isə uşaqlardır.

NATO 1999-cu ildə Kosovoda alban dilli əhaliyə dəstək olaraq Serbiyanı dağıdanda kaset bombalarından geniş istifadə etdi. Müharibənin bitməsindən uzun illər sonra bir çox mülki vətəndaş da həmin bombaların qurban oldu. Məhz buna görə də 2007-ci ildə Norveç bu silahları qadağan edən konvensiya imzalamaq təşəbbüsü ilə çıxış edib. O vaxtdan bəri Kanada, Fransa, Böyük Britaniya, Almaniya, Belçika, İtaliya və bütün NATO üzvü ölkələr də daxil olmaqla 123 ölkə konvensiyanı imzalayıb. ABŞ müttəfiqlərinin kaset bombaları ilə bağlı xəbərdarlıqlarına məhəl qoymayacaqmı? Təsəvvür edin ki, necə "maraqlı" görünəcək.

### Amerika haqqında böyük qeyri-müəyyənlik

Təəssüf ki, avropalılar pis vassaldırlar. Onların qüdrətli ağalarının qətiyyəti az, bacarıqları yoxdur. Onlar Co Baydenin timsalında özlərinin qüdrətli qoruyucularını görürlər. Təəccüblü deyil ki, ABŞ prezidenti bu yaxınlarda NATO Nizamnaməsində və onun 5-ci maddəsində tamamilə aydın şəkildə qeyd olunanlara istinad edərək münasibətləri dərinləşdirməi təklif edib. Söhbətin hansı münasibətlərdən getdiyini Bayden administrasiyasından başqa heç kim bilmir. Halbuki ABŞ artıq avropalıların bütün haqqına girib. NATO ərazisinin bir kvadrat metri belə xarici güc tərəfindən hücuma məruz qalarsa, alyansın bütün üzvləri avtomatik olaraq bu cür qüvvələrə qarşı müharibə vəziyyətində qalacaqlar, deyimi də bütünlüklə ABŞ-ın iradəsindən asılı vəziyyətə düşüb.

Ancaq Baydendən fərqli olaraq, Tramp 2025-ci ilin yanvarında hakimiyyətə qayıdarsa, Ağ Evin Rusiyaya qarşı siyasəti necə olacaq, sualı indi hər kəsi düşündürür. Birdən ABŞ siyasətində dönüş olarsa, ABŞ-ın keçmiş prezidenti Vladimir Putinlə "sülh razılaşması tapmaq üçün ona cəmi iyirmi dörd saat vaxt lazımdır" fikri aktuallaşarsa dünyanın taleyi necə olar? İki lider bir-biri ilə "dil" taparsa bu günə qədər hazırlanan planlar necə olacaq?

Beləliklə, bütün əminliklərə baxmayaraq, "vassallar" Amerika ilə bağlı çoxlu qeyri-müəyyənliyə malikdirlər. Onlar ABŞ-ın Moskva üçün uzunmüddətli strategiyasının nə olduğunu başa düşmürlər. Amerika köhnə status-kvoya qayıtmaq istəyir, yoxsa daha çox istəyir? Doğrudanmı ABŞ Birləşmiş Qərargah Rəisləri Komitəsinin rəhbəri Mark Millinin dediyi kimi, qüvvələr balansına qayıtmağa çalışmaqdır?

**V.VƏLİYEV**

***P.S.*** *Məqalədə xarici mənbələrdən istifadə olunub*





# Dəmir yolunun inkişafında yeni uğurlara imza atılır

Son 20 ildə Azərbaycanın sosial iqtisadi sahədə etdiyi uğurlar ölkəmizin dünya miqyasında yerinin və rolunun daha da möhkəmlənməsinə səbəb olub. Qazanılan nailiyyətlər Azərbaycan iqtisadiyyatının inkişafının təkcə enerji sektoru üzərində köklənməyərək digər mühüm sferaları da əhatə etməsidir. Azərbaycanın Prezidenti İlham Əliyev bu barədə tarixi çıxışlarının birində demişdir: "Bizim iqtisadi inkişafımız təkcə bir sektorun inkişafına bağlı deyil. Bizim siyasətimiz ondan ibarətdir ki, ölkəmizi modernləşdirək, ölkəyə ən qabaqcıl texnologiyaları gətirək. Azərbaycanda bütün iqtisadi və sənaye sahələrində ən qabaqcıl təcrübə tətbiq olunmalıdır, peşəkar kadrlar hazırlanmalıdır. Ölkəmiz uğurla inkişaf etməyə davam edəcəkdir. Bizim təbii resurslarımız var, iqtisadi siyasətimiz var və bu, uğurlu siyasətdir. Beynəlxalq maliyyə qurumları Azərbaycanda bu sahədə aparılan işlərə çox yüksək qiymət verirlər. Yəni bu, həqiqəti əks etdirən qiymətdir və beləliklə, biz ölkəmizin uzunmüddətli inkişaf strategiyasını təmin edəcəyik".

Söz yox ki, ölkə nəqliyyat sektorunun tərkib hissəsi olan Azərbaycan Dəmir yolu sahəsində dinamik inkişaf Azərbaycanda qazanılan iqtisadi uğurların miqyasının genişlənməsinə mühüm töhfələr verir. Qeyd etmək lazımdır ki, Azərbaycanda ilk dəmir yolunun çəkilməsi 1878-ci ilə təsadüf edir. Bakıda neft sənayesinin yaranması və çıxarılan xam neftin emal müəssisələrinə və satış bazarlarına daşınması məqsədi ilə 1880-ci ilin yanvar ayında uzunluğu 20 kilometr olan Bakı-Suraxanı-Sabunçu dəmir yolu istifadəyə verilmişdir. Daha sonra Ələt stansiyasından Culfa stansiyasınadək olan yollar çəkilmişdi. O dövrdən başlayaraq Azərbaycan dəmir yolu yük daşınmasına olan tələbata uyğun inkişaf etmiş və təkmilləşmişdir. Hazırda baş yolların ümumi uzunluğu 2898,9 kilometr, istismar uzunluğu 2068,1 kilometrdir ki, onların da 802,3 kilometri qoşayolludur. Dəmir yollarının 1229,5 kilometri və ya 68,2 faizi elektrikləşdirilmiş, 1527,7 kilometri avtomatlaşdırılmış işarəvermə sistemi ilə təchiz edilmişdir. Aparılan məqsədyönlü işlər və islahatlar nəticəsində Azərbaycan Dəmir Yolları regionun ən inkişaf etmiş dəmir yoludur. Bu uğurlu nəticələrin əsası isə 1969-cu ildən Ulu Öndərimiz Heydər Əliyevin respublikamıza rəhbərliyə gəldiyi dövrdə qoyulub. Dahi Öndərimiz Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində o dövrdə geridə qalmış dəmir yolu nəqliyyatında köklü inkişafa nail olundu. Ümumilikdə Azərbaycan dəmir yolunda istifadəyə verilən mühüm obyektlərin böyük əksəriyyəti məhz Ulu Öndər Heydər Əliyevin n təşəbbüsü və ciddi nəzarəti sayəsində istismara verilmişdir. Ulu Öndərimizin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illər, istərsə də 1983-1987-ci illər ərzində, dəmir yolu müasir xarici texniki maşınmexanizmlərlə və avadanlıqlarla təchiz edilmişdir. Təəssüflər olsun ki, Ulu Öndərimiz Heydər Əliyev Moskvaya SSSRİ rəhbərliyinə getdikdən sonra Azərbaycan Dəmir Yolunda ciddi qüsurlar, problemlər yaranmağa başlamışdır. Bu problemlər yalnız Dahi Öndərimiz Heydər Əliyevin xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra aradan qaldırılmışdır.

Uğurlu dəmiryolu quruculuğu sonrakı mərhələdə də davam etdirildi

Ulu Öndərimiz Heydər Əliyev hər sahəni, o cümlədən də dəmir yolu sahəsini mükəmməl bilən, yüksək intellektual səviyyəyə malik bir şəxsiyyət idi. Bilavasitə Onun diqqət və qayğısı nəticəsində qısa müddətdə bütün sahələrdə olduğu kimi dəmir yolundakı neqativ hallar aradan qaldırıldı, yüksək inkişafa, tikintiyə, yükdaşınmalara nail olundu. O zaman Ulu Öndərimiz dəmiryolçular qarşısında çıxış edərkən demişdir: "Tərcümeyi-halımdan məlumdur ki, mənim atam da dəmiryolçu olubdur. Mən dəmiryolçu ailəsində böyümüşəm. Hələ uşaq ikən dəmir yollarının üzərində, nə qədər atamın yanında olmuşam. Hesab edirəm ki, dəmir yolunu həm bilirəm, həm də




*Azərbaycan Dəmir Yolunun inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır*

sevirəm. Dəmir yolu sahəsinin Azərbaycanda dərin kökləri və böyük ənənələri var. Dəmiryolçular həmişə çox intizamlı olublar. Dəmir yolunun özü çox intizam tələb edir. Keçmişdə belə bir ənənə var idi ki, saatları həmişə dəmir yolunun saatları ilə düzəldirdilər. Çünki dəmir yolunun saatı həddindən artıq dəqiq işləyən saat idi".

## ADY beynəlxalq təşkilatlarla əlaqələr üstünlük verməşdir

Azərbaycan Dəmir Yolu beynəlxalq təşkilatlarla əlaqələrə böyük önəm verirdi. Bu məqsədlə də Azərbaycan Dəmir Yolları 1993-cü ildən Beynəlxalq Dəmir Yolları Əməkdaşlığı Təşkilatının, 1995-ci ildən Beynəlxalq Dəmir Yolları İttifaqının üzvü olmaqla bu qurumların işində aktiv iştirak etməyə başladı. 1997-ci ildən başlayaraq Bakıda dəmiryolçularının MDB və Baltikyanı Dövlətlərin Dəmir Yolu Nəqliyyatı Şurasının yığıncağı, Tarif Konfransı, DYƏT-nin Nazirlər Müşavirəsinin Sessiyası, İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dəmir yolu rəhbərlərinin müşavirəsi və başqa tədbirlər keçirilmişdir.1996-cı ildən etibarən elektrik təchizatı sahəsində bir sıra uğurlu islahatlar aparıldı Ötən dövr ərzində Puta stansiyasında kontakt şəbəkəsi tamamilə yenidən qurulmuş, transformatorlar quraşdırmaq hesabına 123 işarəvermə nöqtəsi, Znoynı (indiki Xıdırlı) stansiyasında yarımstansiya bərpa edilmişdir. Horadiz stansiyasında 2, 5 km uzunluğunda hava enerji təchizatı xətti bərpa edilmiş və 250 KVA-lıq transformatorlar quraşdırılmışdır. Enerji təchizatı qurğularının etibarlı işləməsi üçün Keşlə stansiyasında ikinci qida mənbəyi 400 KVA-lıq transformator quraşdırılmış, Gəncə vaqon deposu üçün yeni 10 KV gücündə enerji təchizatı xətti çəkilmişdir. Azərbaycan Dövlət Dəmir Yolunda istismar olunan yolların 62 faizi, yəni 12278 km-i elektrikləşdirilmişdir. Əsas iş sahələri olan Bakı-Böyük Kəsik, Bakı-Yalama, Bakı-Osmanlı xətləri tam elektrikləşdirilmişdir.1996-cı ildən etibarən Azərbaycan dəmir yolu tranzit yol kimi bir neçə beynəlxalq nəqliyyat dəhlizlərində iştirak etməyə başladı. Lakin əsas daşıma dəhlizi TRASEKA dəhlizi hesab edilir. Bu sahə Böyük İpək Yolunun Bakıdan Böyük-Kəsik stansiyasına (Gürcüstanın dövlət sərhədlərinə) qədər məsafəni və daha sonra üçüncü dövlətlərə çıxışı əhatə edir. Sonralar bu nəqliyyat dəhlizi Qədim İpək Yolundan TRASEKA-yadək yol keçdi (əslinə qalsa, nəqliyyat dəhlizlərinin fəaliyyətinin bərpa olunması işi 1994-cü ildə "Əsrin kontraktı"nın imzalanması ilə başlanmışdır).1998-ci il sentyabrın 7-9-də Böyük İpək Yolunun dirçəldilməsinə həsr olunmuş beynəlxalq konfrans Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Bakı şəhərində keçirilmişdi. Bu mötəbər tədbirdə 13 dövlətin və 32 beynəlxalq təşkilatın nümayəndələri iştirak etmişdir. İki gün davam edən konfransda Bakı bəyannaməsi qəbul edildi. Qəbul edilən sənədlər sırasında beynəlxalq tranzit daşınmaları haqqında Əsas Çoxtərəfli Razılıq, həmçinin beş texniki Əsasnamə, o cümlədən, dəmir yolu daşımaları sahəsində əməkdaşlıq barədə müqavilə də vardır. 4 yanvar 1998-ci ildə Dübəndi terminalının və stansiyasının açılış mərasimi keçirilmişdir. Həmin mərasimdə Ulu Öndər Heydər Əliyev iştirak etmiş, burada görülən işləri, dəmir yolunun fəaliyyətini yüksək qiymətləndirmişdir.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi və modernləşdirilməsi prosesi Prezident İlham Əliyev tərəfindən daha intensiv şəkildə aparılır. "Bakı-Tbilisi-Qars" və "Şimal-Cənub" beynəlxalq və regional nəqliyyat dəhlizlərinin reallaşması həyata keçirilən irimiqyaslı işlərdəndir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri ərazi bütövlüyümüzü bərpa etdikdən dərhal sonra ölkə başçısının tapşırıqlarına uyğun olaraq Qarabağda başlanılan quruculuq işləri çərçivəsində dəmir yolu infrastrukturu layihələri intensiv şəkildə həyata keçirilir. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti Bərdə-Ağdam, Horadiz-Ağbənd dəmir yolu xətlərinin yenidən qurulması və Füzuli-Şuşa yeni dəmir yolu xəttinin inşası işlərini davam etdirir. Azərbaycan Prezidenti İlham Əliyevin 24 noyabr 2020-ci il tarixli Sərəncamına əsasən yenidən qurulması işlərinə başlanılan Bərdə-Ağdam dəmir yolu xəttinin ox üzrə uzunluğu 47,1 kilometrə bərabərdir. Layihə çərçivəsində birxətli dəmir yolu xətti üzrə hazırda fəaliyyətdə olan Bərdə və Köçərli stansiyaları təmir ediləcək, Təzəkənd və Ağdam stansiyaları isə yenidən tikiləcək. Həmçinin yol üzrə 114 ədəd süni mühəndis qurğusunun tikintisi də nəzərdə tutulur. Hazırda dəmir yolu xəttinin Bərdə-Köçərli-Təzəkənd istiqaməti üzrə layihələndirmə və üst quruluşunun söküntüsü işləri tamamlanıb, torpaq yatağının, üst quruluşu elementlərinin, süni qurğuların tikintisi və Təzəkənd-Ağdam istiqaməti üzrə layihələndirmə işləri davam etdirilir.

## İşğaldan azad edilmiş ərazilərə dəmir yolu çəkiliş qələbəyə yeni ruh verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 14 fevral 2021-ci il tarixində təməli qoyulmuş Horadiz-Ağbənd dəmir yolu xəttinin ox üzrə uzunluğu 110,4 kilometrə bərabərdir. Birxətli dəmir yolu 8 stansiyadan ibarət olacaq, həmçinin layihə çərçivəsində ümumilikdə 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılır. Horadiz stansiyası ilə yanaşı, digər yeddi stansiya – Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Mincivan, Bartaz və Ağbənd tamamilə yenidən tikiləcək. Hazırda dəmir yolu xətti bütövlükdə dron vasitəsilə topoqrafik plana alınıb, konseptual planı hazırlanıb, minalardan təmizlənmiş 39 kilometrlik hissəsində torpaq yatağının hazırlanması, həmçinin süni qurğuların tikintisi işləri həyata keçirilməkdədir. Füzuli-Şuşa istiqamətində ilk dəfə inşa ediləcək birxətli elektrikləşdirilmiş dəmir yolu xəttinin ox üzrə uzunluğu 83,4 kilometrə bərabərdir. Layihə çərçivəsində iki yeni stansiya – Füzuli və Şuşa stansiyalarının, habelə 200-ə yaxın süni mühəndis qurğularının layihələndirilməsi və tikintisi planlaşdırılır. Hazırda dəmir yolu xəttinin trassasının ümumilikdə topoqrafik tədqiqat işləri tamamlanmışdır və süni mühəndis qurğularının layihələndirilməsi işləri davam etdirilir. İcrasına başlanılan layihələrlə yanaşı, ADY-nin mütəxəssisləri tərəfindən azad edilmiş ərazilərdə dəmir yolu xətlərinin inşası üçün yeni istiqamətlər araşdırılır. Belə istiqamətlərdən biri də Dəlidəmmədli-Kəlbəcər dəmir yolu xəttidir. Dəmir yolu xəttinin ilkin konseptual layihəsi hazırlanıb. Ox üzrə uzunluğu 88,8 kilometrə bərabər bu birxətli dəmir yolu xətti üzrə 220-ə yaxın süni mühəndis qurğusunun layihələndirilməsi və tikintisi təklif edilir.

Sərnişin daşınmalarının həyata keçirilməsində də Azərbaycan Dəmir Yolları fəal iştirak edir.3 mart 2015-ci ildə Bakı-Xırdalan-Sumqayıt sərnişin sahəsində 63 km uzunluğunda baş yolların əsaslı təmirinə start verilmiş, sentyabrın 2-də işlər başa çatdırılmışdır. Layihə çərçivəsində Bakı sərnişin, Keşlə, Xırdalan, Sumqayıt sərnişin stansiyalarının stansiya yolları və yoldəyişənləri yenilənmiş, Bakı-sərnişin və Sumqayıt-sərnişin stansiyalarında turnıketlər və pos-terminallar quraşdırılmışdır. 21 may 2015-ci ildə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov "Stadler Rail Group" şirkətinin "Stadler Minsk" zavodu da olmuş, Azərbaycan Dəmir Yolu üçün istehsal olunan KİSS markalı ikimərtəbəli elektrik qatarına baxış keçirmişdir. Dəmir Yolunun vaqon və lokomotiv parkının yenilənməsi istiqamətində atılan mühüm addımlar olduqca təqdirəlayiqdir. Yükdaşımalarına olan tələbatın ödənilməsi, xidmətin səviyyəsinin daha da yüksəldilməsi, əlavə yüklərin cəlb olunması və daşınan yüklərin mənzil başına təhlükəsiz şəraitdə çatdırılması üçün texniki vasitələrin yeniləşdirilməsi zamanın tələbidir. Bu həm də əlavə valyuta resurslarının Azərbaycan iqtisadiyyatına yönəldilməsi deməkdir. Təbii ki, uğurlar davamlı olacaq. Çünki Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti İlham Əliyevin davam etdirdiyi siyasətin kökündə qurmaq, yaratmaq və inkişaf etdirmək dayanır.

***Gülyanə Ağakərimova***

*Yazı "Azərbaycan Dəmir Yolları" QSC və Azərbaycan Mətbuat Şurasının "Azərbaycan dəmir yollarının inkişafının Heydər Əliyev modeli" mövzusunda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı müsabiqəsinə təqdim etmək üçün hazırlanmışdır*

# Rusiyalı ekspert: “Azərbaycanın Qoşulmama Hərəkatına rəhbərliyi dünyada yeni reallıq yaradıb”

*Rusiya Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov “Moskva-Baku” portalına müsahibəsində Azərbaycanın nə üçün bugünkü geosiyasi və digər çağırışlar fonunda dünyanı daha ədalətli etmək məqsədi güddüyü barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.*



**- Ötən gün Rusiyanın müşahidəçi dövlət olduğu Qoşulmama Hərəkatının Bakıda keçirilən iclasının yekunu olaraq 2024-cü il Parisdə keçiriləcək Olimpiya və Paralimpiya Oyunlarına həsr olunmuş xüsusi bəyannamə qəbul edilib. Bəyannamədə tədbirin təşkilatçılarına siyasi neytrallıq və milli əsasda idmançılar üçün hər hansı xüsusi məhdudiyyətin rədd edilməsi çağırışı öz əksini tapıb. Əslində burada rusiyalı idmançılar ətrafında vəziyyətə istinad edilir. Rusiya XİN bu bəyanatı alqışlayıb. Beynəlxalq**



**Olimpiya Komitəsinin rəhbəri Tomas Baxın bu çağırışa görə İlham Əliyevə təşəkkür etdiyi kimi...**

- Bununla da həm Azərbaycan, həm də Qoşulmama Hərəkatının digər ölkələri Olimpiya hərəkatının “idman siyasətdən kənarda”, onun toxunulmazlığı prinsipinə sadiqliyini nümayiş etdirdi, idman yarışlarından siyasi təzyiq rıçaqları kimi istifadə edilməsinə, siyasi repressiyalara görə idman arenasından istifadəyə qarşı çıxdı. Bu, hər şeydən əvvəl ədalətə sadiqliyin nümayişidir. Bundan əlavə, bu halda belə bir bəyannamə Bakı və Qoşulmama Hərəkatının digər dövlətləri tərəfindən Rusiya və Belarusa dostluq addımı kimi qiymətləndirilə bilər. Rusiya isə Azərbaycanın və onun lideri İlham Əliyevin belə bir addım atmasına böyük minnətdarlıqla reaksiya verdi. Azərbaycan Respublikası bu gündəliyi aktual hesab etdi və dünyanın ikinci ən böyük beynəlxalq təşkilatının digər dövlətləri də onu dəstəklədilər. Və bu son dərəcə vacibdir. Beləliklə, bu mövzu dünyada diqqət çəkdi.

Azərbaycan özünü bir daha təkcə öz regionunda deyil, dünyanın hər yerində, dünyanın müxtəlif yerlərində ədalət uğrunda mübarizə aparan dövlət kimi, beynəlxalq aləmdə məsuliyyətli, siyasi xəttini davam etdirən, nəinki qlobal hisslər keçirən bir oyunçu kimi nümayiş etdirdi. Onun yürütdüyü xətt dünyanı daha ədalətli etməyə yönəlib ki, hegemonizm arxa plana keçsin.

Qoşulmama Hərəkatının Bakıda keçirilən iclasının yekunları üzrə qəbul edilmiş müxtəlif sənədlərdə beynəlxalq hüquq normalarına və dövlətlərin ərazi bütövlüyünə riayət edilməsi, nüvə güclərinə çağırışlar, irqçilik, ksenofobiya meylləri, neokolonializm və s. məsələləri öz əksini tapıb. Bu, Azərbaycanın aktual məsələləri beynəlxalq miqyasda təbliğ etdiyini göstərir. Məsələn, Azərbaycanın Bakı bəyannaməsində təsbit olunmuş xarakterik mövqeyi Fələstinin müdafiəsidir. Bu, Bakının İsraillə əla münasibətlərə malik olmasına baxmayaraq. Azərbaycanın siyasətinin mahiyyəti hansısa konkret dünya düşərgəsinə qoşulmaq deyil, məntiq əməliyyatı deyil, o zaman ki, kimsə öz müttəfiqlərini dəstəkləyir (beynəlxalq siyasi münasibətlərdə əksər hallarda belə olur), qalanları isə bizim dostumuz deyil deyir. Azərbaycan, ilk növbədə, ədalətli dünya tərəfdarıdır.

Bununla da Azərbaycan özünün ən ciddi qlobal subyektivliyini göstərir. Müstəqil dövlət kimi, ona müxtəlif tərəfdən edilən siyasi təzyiqlərdən asılı olmayaraq, təkcə öz milli maraqlarını deyil, beynəlxalq hüququ rəhbər tutaraq, təxirəsalınmaz gündəliyi irəli sürür.

Bu gün biz əminliklə deyə bilərik ki, Azərbaycanın beynəlxalq aləmdə statusu yalnız yüksəlir, böyüyür və yüksəlir. İkinci ən böyük beynəlxalq təşkilata sədr kimi Bakıya uzun illər ərzində etimad göstərilməsi Azərbaycanın statusunu və İlham Əliyevin şəxsi təsirini artırır, beynəlxalq əlaqələrin inkişafına töhfə verir.

Yeri gəlmişkən, idmandan danışsaq, Azərbaycan erməni idmançıları qəbul edərkən “idman siyasətdən kənardır” prinsipini mükəmməl şəkildə nümayiş etdirir və həyata keçirir. Erməni idmançılar tezliklə Bakıya atıcılıq üzrə dünya çempionatına gəlməlidirlər. Və lazımı təhlükəsizliyin təmin edilib-edilməyəcəyi, idmançılara düzgün münasibətin təmin olunub-olunmayacağı ilə bağlı heç bir sual yoxdur. Azərbaycan öz məsuliyyətini, ləyaqətli münasibətini, səbrini bariz şəkildə nümayiş etdirib. Təəssüf ki, Ermənistandan və erməni idmançılardan fərqli olaraq.

Cənubi Qafqazda isə Azərbaycan qonşuları ilə qarşılıqlı hörmətə və ərazi bütövlüyünə əsaslanan konstruktiv, şəffaf münasibətlərə yönəlmiş məsuliyyətli oyunçu kimi özünü aparır. 2020-ci il noyabrın 9-10-da Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı üçtərəfli bəyanata Bakının münasibəti də bunu nümayiş etdirir. Rəsmi Bakı məsul tərəf kimi bu sənədi nəinki icra edir, həm də müntəzəm olaraq Ermənistanın da onu həyata keçirməsini təmin edir. Bakı qonşusundan fərqli olaraq Ermənistan-Azərbaycan nizamlanması prosesinə yeni iştirakçılar cəlb etməyə, bəyanatın hansısa məqamlarını şübhə altına almağa, yeni nüanslar əlavə etməyə çalışmır. Bu, müasir dünyada konstruktiv yanaşmadır, məsuliyyətli mövqedir. Bir dövlət müqavilə imzalayanda və sonra onu həyata keçirəndə. Və bəzi digər iştirakçılar, daha doğrusu, Ermənistan 2,5 ildir ki, danışıqlar masası arxasında oturub mövzunu qaldırır – gəlin bunu necə edəcəyimizi, danışıqları necə aparacağımızı müzakirə edək. Azərbaycan isə imzasına, öhdəliklərinə sadiqliyini çox əyani şəkildə nümayiş etdirir. Və tərəfdaşlardan da bunu tələb edir.

Əliyev Hərəkatın iclasında Fransanın Cənubi Qafqaz dövlətlərinin daxili işlərinə qarışmaq cəhdlərindən də danışıb. Fransa Afrikadakı nüfuzunu əldən verib və indi bunu kompensasiya etmək, əsas beynəlxalq oyunçu kimi reputasiyasını bərpa etməyin mümkün olacağı ”təsir” yerləri tapmağa çalışır. Beləliklə, Paris Cənubi Qafqazı “belə bir yer” olaraq tapdı. Həmişə olduğu kimi, Paris üçün nəticə o qədər də uğurlu olmasa da, ənənəvi olaraq hər şey çox səs-küylüdür ki, bu da Emmanuel Makronun bütün siyasətinin leytmotividir. Bu cür siyasət, bu cür “hərəkətlər” özünü reklam etmək üçün o qədər də təsirli deyil. Cənubi Qafqaz timsalında da eyni şeyi görürük. Fransanın Qafqaz dövlətlərinin işlərinə “girməsi” növbəti dəfə Parisin öz siyasi reputasiyasını başqasının hesabına yaxşılaşdırmaq üçün yöndəmsiz cəhdə çevrildi. Bu işdə Ermənistan və Fransanın erməni icması “aktiv” alət rolunu oynayırdı.

**- Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etdiyi illər ərzində bu təşkilatı, onun prinsiplərini və dəyərlərini yeniləyib. Bəs bu, günümüzün geosiyasi tendensiyalarına nə dərəcədə uyğundur?**

- 2019-cu ildə Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi üzərinə götürdü, sonra təşkilata üzv olan 120 dövlətin çağırışı ilə onun sədrliyi daha bir il uzadıldı. Bu 4 il ərzində dünya bəşər sivilizasiyasının inkişafında ən ciddi problemlərlə üzləşib: bu, kovid epidemiyası və son nəticədə bütün dünyaya təsir edən Rusiya ilə Qərbin hazırkı qarşıdurmasıdır. Amma Azərbaycanın sədrliyi ilə təşkilat ikinci yeni nəfəs aldı və hər şeydən əvvəl Bakı yeni çağırışlara unikal, aydın cavabları ilə strukturda yeni səhifə açdı. Hərəkatın dəyər və prinsipləri bu gün həmişəkindən daha çox aktuallaşıb. Azərbaycanın Hərəkata sədrliyi ölkənin beynəlxalq münasibətlərin subyekti statusunu gücləndirib. Bu gün Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatı (yeri gəlmişkən Rusiyanın müşahidəçi qismində qoşulduğu) nəzərə çarpan, rəyi dinlənilən, nəzərə alınan və bir çox dövlətlərin iştirak etməyə çalışdığı struktura çevrilib. Hərəkat inkişaf etməkdə olan dövlətlərin- Afrika və Latın Amerikası ölkələrinin səsini səsləndirmək üçün bugünkü gündəliyi aktuallaşdırır.

Azərbaycanın sədrliyinə qədər, Hərəkat 20-ci əsrdən siyasi miras olaraq qalmış bir struktur idi, o zaman ki, soyuq müharibə dövründə bir tərəfdən Vaşinqton, digər tərəfdən də Moskva yönümlü dövlətlər var idi. NATO bloku və Varşava Müqaviləsi ölkələri və onların arasında Qoşulmama Hərəkatı. İndi Qoşulmama Hərəkatı artıq 20-ci əsrin reallıqlarında yaşayan, müasir çağırışlara cavab verən tamhüquqlu bir strukturdur və təşkilatın bu gün ədalət məkanına çevrilməsi, şübhəsiz ki, Azərbaycanın, şəxsən prezident İlham Əliyev səmərəli rəhbərliyinin nəticəsidir.

Və demək olmaz ki, Qoşulmama Hərəkatı hegemon Qərbin “azad dünya”ya qarşı çıxmaq meylinin əksidir. Qoşulmama Hərəkatı dünya quruculuğunda, müxtəlif strukturların, dövlətlərin, ideologiyaların, dinlərin və dünyagörüşlərinin dünya proseslərində bərabər iştirakın tərəfdarıdır. Və sonra bu əsasda - yeni ədalətli münasibətlər qurmaq.

Əliyev iclasda ilk dəfə deyildi ki, BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasının zəruriliyi mövzusunu qaldırır, çünki onun tərkibi artıq köhnəlib və müasir reallıqlara cavab vermir və coğrafi baxımdan daha geniş olmalıdır. Bu mövzu Rusiya tərəfindən də qaldırılır. Ümumiyyətlə, son 15-20 ildə BMT Təhlükəsizlik Şurasının sisteminin dəyişdirilməsi məsələsi müzakirə olunur. BMT TŞ İkinci Dünya Müharibəsinin mirasıdır, nüvə silahına malik olan qalib dövlətlər beynəlxalq təhlükəsizliyin təminatlarını öz üzərlərinə götürərək Təhlükəsizlik Şurasının daimi üzvlərindən ibarət klub yaratdılar. Bu gün daha çox ölkə nüvə silahına malikdir, daha çox dünya mərkəzləri var və iqtisadiyyat baxımından balans çox dəyişib. Ona görə də ümumi bir anlayış var ki, qlobal təhlükəsizlik strukturlarının sistemini dəyişmək lazımdır, amma bunu necə etmək olar... Axı ABŞ çalışır ki, mümkün qədər çox müttəfiqi Təhlükəsizlik Şurasına daxil olsun. Bu, “cib”dən idarə olunan strukturdur (bir çox digər beynəlxalq təşkilatlar kimi). Alternativ baxış ondan ibarətdir ki, BMT Təhlükəsizlik Şurasına digər dünya mərkəzləri də daxil edilməlidir - bunlar Afrika İttifaqı, Latın Amerikası ölkələri və ərəb dünyasıdır.

**- Hərəkatın iclası çərçivəsində İlham Əliyev İranın xarici işlər naziri Abdullahianla görüşüb. Rəsmi Bakının və iranlı nazirin özünün şərhlərinə görə, görüş müsbət keçib. Tərəflər münasibətlərdəki bütün çətin məqamları aradan qaldırmaq, Zəngəzur dəhlizinə alternativ yol layihəsinin həyata keçirilməsini aktivləşdirmək barədə razılığa gəliblər. Burada hansı perspektivləri görürsünüz? Yenə də son illərdə iki ölkə arasında münasibətlər yelləncəyə bənzəyir.**

- Belə bir görüşün baş tutmasının özü çox vacibdir. Məncə, münasibətlərdə müsbət irəliləyişin perspektivi olmasaydı, yəqin ki, görüş baş tutmazdı. Ona görə də hesab edirəm ki, Azərbaycan Respublikasının Tehrandakı səfirliyində baş vermiş ciddi insidentdən sonra münasibətlərin normallaşması üçün ciddi əsas işlənib hazırlanmışdır. Münasibətlər normallaşarsa, Rusiya, Azərbaycan və İranın maraqlı olduğu Şimal-Cənub layihəsinin aktivləşməsindən danışmaq olar. Azərbaycan və İran arasında konstruktiv sakit münasibətlər həm də Cənubi Qafqazda və Xəzər regionunda daha böyük təhlükəsizlik deməkdir. Bu, nəqliyyat kommunikasiyalarının təhlükəsizliyidir-xüsusən də söhbət Zəngəzur dəhlizindən, sərhəd məsələlərinin həllindən gedir. Əliyevlə Abdullahianın görüşü, şübhəsiz ki, müsbət tendensiyanın təzahürüdür.

***Tərcümə - Elçin Bayramlı***




# İsveçin NATO üzvlüyü ilə bağlı Türkiyənin razılığında MARAQLI MƏQAMLAR

***İsveçin NATO üzvülüyünə qəbulu üçün Türkiyənin protokolu imzalamağa razılıq verməsi sözsüz ki, maraq doğurmaya bilməz. Hər halda, Türkiyənin belə bir razılıq verməsinin səbəbsiz olduğunu düşünmək sadəlövhlük olardı, çünki bu məsələdə hansısa maraqlı məqamların olması qənaətinə gəlmək üçün əsas yetərincədir. Elə məhz bu baxımdan da qardaş ölkənin razılığı bir neçə istiqamətdə izah olunur, bir neçə istiqamətdə şərh edilir və bu da onu deməyə əsas verir ki, sözügedən məsələ demək olar, bütün dünyanın diqqət mərkəzindədir.***



İlk öncə onu diqqətə çatdıraq ki, İsveçin NATO üzvlüyünə qəbulu Alyansın genişlənmə imicini təqdim etmək imkanı olaraq görülür. Belə düşünən, belə qənaətdə olan politoloqlar, siyasətçilər cəmiyyətdə çoxluq təşkil edir. Digər tərəfdən isə, perspektiv üçün güzəşt paketini almadan Türkiyənin belə bir qərara gəlməsi heç də inandırıcı deyil və qardaş ölkənin hansısa şərtlər daxilində buna razılıq verdiyi daha inandırıcı səslənir. Həqiqətən də qardaş ölkənin hansısa bir şərti, eləcə də bu məsələdə maraqlı olduğunu düşünməkdə hər kəs haqlıdır. Əks halda, İsveçin NATO üzvlüyünə qəbulu məsələsi bu qədər ciddi şəkildə nəzərə alınmazdı. Elə isə şərt, yaxud maraqlar nədən ibarət ola bilər və bütün bunlar nədən xəbər verir?

Şərt dedikdə ilk ağıla gələn Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın NATO sammiti öncəsi ölkəsinin Avropa İttifaqına üzvlüyünü şərt kimi irəli sürməsidir. Belə çıxır ki, NATO ailəsinin böyüməsinə razılıq verməsi müqabilində Türkiyənin Avropa İttifaqına üzvlüyünə əngəl sayılanların "zərərsizləşdiriləcəyi" vəd olunub. Eyni zamanda, bu razılığın müqabilində PKK-ya qarşı mübarizədə Vaşinqtonun dəstəyi barədə də Türkiyəyə vədlər verilə bilər, hansıki bu çox önəmli bir məqamdır. Çox güman ki, regional maraqların təminində belə ABŞ-nin dəstəyini qazanmaq kimi niyyət də var və bu heç də diqqətdən yayınacaq məqam deyil. Həm də axı bu razılıq olmasaydı Türkiyənin NATO strategiyasına sadiqliyinə şübhələr də yaranardı və bundan sonrakı addımları zamanı Alyansdan dəstək alacağına zərrə qədər ümidi belə ola bilməzdi. Bir sözlə, Türkiyənin belə bir qərar verməsi, daha dəqiq desək, İsveçin NATO üzvlüyünə qəbulu ilə bağlı protokolu imzalamağa razılıq verməsi Türkiyə üçün ən doğru addım hesab olunur.

Bilirik ki, Türkiyə artıq dünya miqyasında, geosiyasi müstəvidə çox güclü, qüdrətli dövlət olaraq qəbul edilir və bu ölkə həqiqətən də söz sahibinə çevrilib. Elə bu səbəbdən də dünya ölkələrinin əksəriyyəti, özü də ən qüdrətli ölkələr məhz Türkiyə ilə hesablaşmaq, qardaş ölkənin mövqeyini, maraqlarını nəzərə almaq məcburiyyətindədirlər. ABŞ və Rusiyanın misalında ən qabaqcıl ölkələr Türkiyə ilə əlaqələrini daha da yaxşılaşdırmaq marağındadırlar. Bu marağı beynəlxalq görüşlər zamanı, müxtəlif platformalarda keçirilən tədbirlərdə, məsələlərin həlli ilə bağlı müzakirələrdə görmək olur. Təbii ki, belə bir maraq başqa bir rakursda da özünü biruzə verir, çünki Türkiyə qlobal miqyasda təzahür edən problemlərin həllində də əsaslı rola malikdir və bir sıra məsələlərin nizamlanmasına real olaraq, öz töhvələrini də verib. Məsələn, Rusiya-Ukrayna müharibəsi fonunda yaranan taxıl qıtlığı ilə bağlı problemin həllində Türkiyənin nə kimi rol oynadığını dünya ictimaiyyəti unudan deyil. Çünki sözügedən müharibə fonunda dünyanın ən qabaqcıl taxıl ixracatılarından sayılan Ukraynanın və eləcə də Rusiyanın taxıl ixrac etməsi ilə bağlı yaranan problemlər səbəbindən dünyanın bir çox ölkələrində yaranan qıtlıq hər kəsi narahat etdiyi zaman Türkiyə bu məsələnin həlli yolunu ortaya qoydu və sözügedən böhrandan çıxış yolu təklifi tam yerinə düşdü. Məhz belə bir hal Türkiyənin beynəlxalq miqyasda nüfuzunun daha da artmasına öz müsbət təsirini göstərmiş oldu. Belə nümunələrin sayını artırmaq da olar, lakin yalnız qeyd olunan bir fakt da deyilənlərin təsdiqi üçün kifayət edir. Bu baxımdan dünya ölkələrinin qardaş ölkə ilə əlaqələri daha da yaxşılaşdırmağa maraq göstərməsi, çalışması heç də əbəs yerə deyil, təsadüfi də sayılmır.

Sözsüz ki, Türkiyənin özü üçün də beynəlxalq əlaqələrin, bir çox ölkələrlə münasibətlərin inkişaf etdirilməsi maraq dairəsindədir. Çünki beynəlxalq əlaqələrin, münasibətlərin daha da inkişaf etməsi bütün istiqamətlərdə imkanların genişlənməsi deməkdir. Hal-hazırda baş verənləri Türkiyə ilə digər NATO ölkələri arasında yaxınlaşma kimi qiymətləndirmək olar. Çünki həmin ölkələrin Türkiyəyə xüsusi önəm verdiyi artıq özünü aydın şəkildə göstərir. Bu məqam xüsusi diqqətə layiqdir və Türkiyə tərəfi də öz növbəsində, göründüyü kimi, bunu layiqincə qiymətləndirir. Ona görə ki, bu, rəsmi Ankara üçün böyük əhəmiyyət kəsb edir. Qloballaşmaqda olan dünya düzənində NATO ölkələrinin Türkiyə ilə yaxınlaşmasının qardaş ölkə üçün bir neçə istiqamətdə faydalı olduğunu rəsmi Ankara əlbəttə ki, nəzərə alır. İlk növbədə ona görə ki, bu çətin vaxtlarda Hərbi Hava Qüvvələrinin donanmasının yenilənməsi müstəsna əhəmiyyət kəsb edən məsələdir və Türkiyə tərəfi bu məsələyə çox ciddi yanaşır. Digər tərəfdən də, Türkiyə iqtisadiyyatı hələ də inflyasiya və müəyyən kapital axını ilə bağlı çətinliklər yaşayır. Elə bu çətinliklərin, belə bir vəziyyətin fonunda əlaqələrin, münasibətlərin inkişafı, yaxınlaşma haqlı olaraq rəsmi Ankara tərəfindən nəzərə alınmaqdadır.

Dünya ölkələri ilə iqtisadi əlaqələrin nə dərəcədə əhəmiyyətli olduğu bəllidir. O da bəllidir ki, qardaş ölkə Avropa İttifaqı ilə iqtisadi simbiozdadır. Bəli, Türkiyə Avropa bazarında ən böyük avtomobil istehsalçılarından biridir, lakin artan Türkiyə hərbi-sənaye kompleksi hələ də ən son Avropa və Amerika texnologiyalarının idxalından müəyyən dərəcədə asılıdır. Elə məhz buna görə də bu gün Ankara Avropa və Amerika ilə iqtisadi əlaqələrin genişləndirilməsində, texnologiya və investisiyalar üçün həmişəkindən daha çox maraqlıdır. Sözsüz ki, siyasi yaxınlaşma olmadan da onları əldə etmək real görünmür. Məhz bu kontekstdə Ərdoğanın İsveçin NATO-ya daxil olmasına razılıq verməsi, əlaqələrə üstünlük verməsi, bir çox maraqlı məqamların nəzərə alınması heç də təsadüfi sayıla bilməz.

Təbii ki, Türkiyənin İsveçlə bağlı qərara razılıq verməsinin Azərbaycan üçün də əhəmiyyəti həddindən artıq böyükdür. Bələki, qardaş Türkiyə dövlətinin belə bir qərarının Bakının Cənubi Qafqaz siyasətinə müsbət təsir göstərəcəyi təkzib edilə bilməz. Bir halda ki, qardaş ölkə olan Türkiyə müvafiq qərar qəbul edib, deməli, öz milli maraqlarından çıxış edib. Yəni, rəsmi Ankara belə bir qərara gəlməzdən öncə bunun öz ölkəsinin, xalqının milli maraqlarına zidd olmadığını nəzərdən keçirib və müəyyən edib. Müəyyən edib ki, verdiyi qərar ümumilikdə Türkiyənin xeyrinədir. Belə olan halda, Azərbaycan üçün də proseslərin müsbət nəticə verəcəyi gözləniləndir və rəsmi Bakının bununla bağlı nikbin gözləntiləri tamamilə məntiqidir.

***İnam Hacıyev***

# Rəsmi Parisin Fransa neokolonializm siyasətinin acı fəsadları və...



***Tarixdə müstəmləkəçi dövlətlərin sayı çox olsa da Fransa qədər zorakılıqlara, soyqırımlara yol verən ikinci dövlət olmayıb. Milli devizi guya "Azadlıq, bərabərlik, qardaşlıq" olan Fransa hələ də müstəmləkələrini əlindən buraxmaq istəmir. Fransa bugünümüzədək davam edən müstəmləkəçilik dövründə işğal etdiyi əraziləri amansızcasına istismar edib. Bu ölkənin iqtisadiyyatının güclü olmasının əsas səbəblərindən biri məhz müstəmləkə ərazilərin istismar edilməsidir. Fransa bu gün də müstəmləkə ərazilərinin istismarını davam etdirir, oradakı milli azlıqların hüquqlarını tapdalayır.***

Eyni zamanda, başqa ölkələrin daxili işlərinə qarışır, Azərbaycanın Qarabağ iqtisadi rayonunda erməni separatizmini qızışdırır, onların reinteqrasiyasına mane olur.

Fransanın müstəmləkəçilik siyasəti yürütməsi, buna rəğmən ölkəmizin daxili işlərinə qarışmağa çalışması dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun iyulun 5-də Bakıda keçirilən nazirlər görüşündə əsas müzakirə mövzularından biri olub. Prezident İlham Əliyev çıxışı zamanı qeyd edib ki, neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Dövlətimizin başçısı bildirib ki, Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır: "Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir".

Cənab İlham Əliyev qeyd edib ki, özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır. Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılmasının onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdiyini vurğulayan dövlətimizin başçısı bildirib: "Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır".











Aydındır ki, Fransa müstəmləkəçi dövlət olmaqla yanaşı, həm də islamofob və türkofob dövlətdir. Daxildəki irqi ayrı-seçkilik isə onun müstəmləkəçi siyasətinin davamıdır.

Təbii ki, demokratik düşüncəli dünya xalqları, o cümlədən Azərbaycan dövləti və xalqı Fransanın yeritdiyi müstəmləkəçilik siyasətinə sərt münasibət bildirirlər. Belə ki, Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində iyulun 6-da Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masanın yekunlarına dair bəyanat qəbul edilib. Bəyanatda ümumən müxtəlif dekolonizasiya hərəkatlarının bu Fransanın müstəmləkəsi altında olan xalqların gələcəyini, hətta uzunmüddətli perspektivdə sağ qalmalarını təhdid edən müstəmləkəçilik siyasətinin zərərli olduğu vurğulanıb. Sənəddəki konkret məqamlara gəlincə, ilk növbədə Qayanada sosial vəziyyətin xüsusilə pisləşdiyinin, əhalinin 50 faizindən çoxunun yoxsulluğun astanasında olduğu diqqətə çatdırıb. Bildirib ki, burada işsizlik 30 faizdir, təbii sərvətlər talan edilir və torpaqların 90 faizi Fransa dövlətinin şəxsi mülkiyyətindədir.

Sənəddəki digər məqam Martinika və Qvadelupanın iki böyük fəlakətlə üz-üzə olduğunun diqqətə çatdırılmasıdır. Bunlar gizli məskunlaşma strategiyalarının bir hissəsi olan əvəzetmə yolu ilə soyqırımı və təbii ekosistemlərə, əhalinin sağlamlığına ciddi şəkildə təsir edən xərçəng xəstəliyinin rekord göstəriciləridir. Bəyanatda, həmçinin Yeni Kaledoniyada Kanak və Sosialist Milli Azadlıq Cəbhəsinin (FLNKS) 2021-ci ildəki 3-cü referenduma etiraz etdiyi diqqətə çatdırılıb və müstəmləkə altına salınmış Yeni Kaledoniya xalqının müstəqillik hüququ bir daha təsdiqlənib.

Sənəddəki daha bir məqam isə Polineziya ilə bağlıdır. Orada hazırda tamamilə dekolonizasiya perspektivinin aktual əhəmiyyət daşıdığı önə çəkilib. Habelə cənab Oskar Temarunun rəhbərlik etdiyi "Tavini huiraatira no te Ao Maohi" partiyasının Qoşulmama Hərəkatında müşahidəçi statusu almaq istəyi ifadəsini tapıb.

Afrika Mundus sferasının qeyri-hökumət diplomatik şəbəkəsi tərəfindən dəstəklənən, Bakıda olan antimüstəmləkəçi hərəkatlar həm Afrika əsilli insanlara, həm də yerli xalqlara təsir edən müstəmləkə cinayətlərinə görə kompensasiya tələb edirlər. Bu hərəkatlar dünya ölkələrini, eləcə də beynəlxalq təşkilatları, o cümlədən BMT-ni özlərinin fundamental hüquqlarına hörmətin təmin edilməsinə yönəlmiş addımları dəstəkləməyə çağırırlar ki, bu da sənədin məğzindəki başlıca amillərdəndir.

Ən vacib məqamlardan biri ondan ibarətdir ki dəyirmi masaya qatılmış antimüstəmləkəçi hərəkatlar xalqlar arasında qlobal əməkdaşlığa, onların bərabərliyinə və suverenliyinə hörmətə əsaslanan beynəlxalq münasibətlərə yeni yanaşma formalaşdırmaq məqsədilə, xalqlarının tam azad edilməsinədək, müstəmləkəçiliyin kökünün kəsilməsinədək mübarizələrini davam etdirməyi və gücləndirməyi öhdələrinə götürdülər. Ən əsası isə tərəflər Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılığa gəldilər və əməkdaşlığı davam etdirməyə hazır olduqlarını bildirdilər.

Əlamətdar haldır ki, irəli sürülən bütün təşəbbüslər beynəlxalq hüquqa əsaslanmaqla, bəşəri dəyərlərin qorunmasını hədəf seçib. Bu, dünya xalqlarının xoşbəxt və firavan gələcəyinin təminatına son dərəcə etibarlı töhfədir.

**Nigar Orucova**

# Qubad İbadoğlunun demokrat olması müəmmalı suallar yaradır

***Dövr və zaman dəyişsədə dağıcı müxalifətin yanaşması və fəaliyyəti dəyişmədiyi müşahidə olunur. Onların atdıqları addımlar, verdikləri qəralar ancaq xarici anti-Azərbaycan dairələrin sifarişlərinə əsalanır. Hər vəchlə çalışırlar ki, aldıqları çirkli pulların qarşılığında ölkədə qarşıdurma yaratsınlar, ictimai siyasi sabitliyi pozsunlar.***



Misal olaraq 2003-cü il 15-16 oktyabr iğtişaşlarını, 2005-ci ildə "Qələbə" meydanında polislə qarşıdurmalar yaratmağa cəhdlər göstərilməsini, 2009 və 2013-cü il prezident seçkiləri öncəsi "Milli Şura" adlı qondarma qurumun təmsilçiləri xarici anti-Azərbaycan mövqeli qüvvələrdən aldıqları maddi-mənəvi dəstək hesabına mövcud ictimai-siyasi sabitliyi pozmaq üçün dəridən-qabıqdan çıxmalarını, nəhayət, Nardaran qəsəbəsində din pərdəsi altında pozuculuğa meyil etmələrini göstərmək olar. Bütün bu məkrli planlarının başında isə Azərbaycanı ötən əsrin 90-cı illərinin anarxiya və xaos dövrünə sürükləmək istəyi durur.

AXCP sədri Ə.Kərimli, Müsavat partiyasının başqanı A.Hacılı, keçmiş başqan İ.Qəmbər, "Milli Şura"nın sədri Cəmil Həsənli, həmin qrumun üzvü Tofiq Yaqublu və ara sıra ABŞ-da cansıxıcı həyatdan bezib Azərbaycana qaçan və özünü iqtisadçı adlandıran Qubad İbadoğlu xalqa və dövlətə düşmən kəsiliblər. Onların hərəkətləri müxalifətçilikdən çox xalqa, dövlətə açıq düşmənçilik deməkdir. Yəni onların müxalifətçilik fəaliyyətləri böyük zəhmət hesabına yardılan genişmiqyaslı quruculuq-abadlıq işlərini, sosial-iqtisadi uğurları dağıtmaq, möhkəm əsaslar üzərində qurulan ictimai-siyasi sabitliyi pozmağa yönəlib. Bu çirkin planlarını həyata keçirmək üçün hər cür məkrli qüvvələrlə əməkdaşlıq etməkdən çəkinmirlər.

### Qubad İbadoğlu müxalifətçi olduğunu İsa Qəmbərin və Əli Kərimlinin gözünə soxmaq istəyir

Diqqətçəkən məqam ondan ibarətdir ki, son günlər Fransa kimi erməni təssübkeşi olan ölkələr Azərbaycana qarşı qarayaxma kampaniyası aparılar. Bundan ruhlanan və ya xüsusi sifariş alan Azərbaycanın dağıdıcı müxalifəti daxildə ictimai rəyi çaşdırmağa xidmət edən açıqlamalar verir, paylaşmalar edirlər. ABŞ-da lövbər salaraq "virtual iqtisadçılıq"la məşğul olan Qubad İbadoğlu müxalifətçi olduğunu İsa Qəmbərin, Əli Kərimlinin gözünə soxmaq üçün dəridən qabıqdan çıxır. O mənasız iqtisadi təhlilər irəli sürür, neft sənayesi, neft daşınmaları ilə bağlı təhrifedici iqtisadi mülahizələrini söyləyir. Yəni Q.İbadoğlu bütün gücünü Azərbaycandakı sosial-iqtisadi durumla bağlı vəiyyəti mümkün qədər neqativ fonda təqdim etməyə yönəldib. Hətta bir qədər də irəli gedərək sosial şəbəkələrdə özündən uydurduğu rəqəmlərlə insanları aldatmağa çalışır, yalanı aşkar olunanda isə günahını hansısa beynəlxalq təşkilatın "faktları"nın üzərinə yıxır. Ümumiyyətlə ikibaşlı və ziddiyətli açıqlamaları ilə konkret hansı peşənin, sahənin admı olduğunu göstərə bilməyib. Gah sosial şəbəkələrdə "virtual iqtisadçılıq" kimi çıxış edir, gah "blogger-siyasətçi" kimi danışmağa çalışır, gah da vətəndaş cəmiyyətinin təmsilçisi olaraq özünü təqdim etməyə çalışır. Əslində qeyd olunan peşələrin heç biri tam deyil, yarımçıqdır. Bu baxımdanda Azərbaycanının ictiami rəyində Q.İbadoğlu ciddi şəxs kimi qəbul edilmir. 2015-ci ildə Müsavtdan acıq edərək kənarda özünə "Azərbaycan Demokratiya və Rifah" adlı partiya yaratsa da özünü doğrulda, siyasi arenda təsdiq edə bilmədi. Nəhayət ABŞ -dakı ağalarının yanına qaçmağa məcbur oldu. Hətta himayədarları ABŞ-da ona küçələrdə təmizliyə nəzarət idarəsində işə də düzəltdilər.

Q.İbadoğluya qrant, qonorar müqabilində islahatları hədəf seçmək tapşırığı verilib

Deyilənlərə və yazılanlara görə, küçələrdə vəzifəsini layiqincə icra etdiyindən yaxşı məvacib alır. Sosial şəbəkələrdə sifarişlər əsasında can fəşanlıq etdiyindən məvacibinə əlavələr də edilir. Siyasi bilgiləri çox zəif və savadsız olduğundan səthi təhlilləri mövcuddur. Lakin bu ağalarını narahat etmir. Əsas odur ki, onun Azərbaycanla bağlı qarayaxmaları, şər və böhtanları tezislər əsasında sosial şəbəkələrə çıxarılaraq müzakirə edilir. Q.İbadoğlu cəfəng fakir irəli sürür, "Azərbaycan dövləti siyasi mühitin dağıdılması, siyasi partiyaların dağıdılması üçün addımlar atır". Təbii ki, illər öncə Müsavtdan başını götürüb qaçan diletantın bu cür ittihamlar səsləndirməsi təəccüblü və təsadüfi deyil.

Fakt budur ki, "Siyasi partiyalar haqqında" Qanunun ictimaiyyətin müxtəlif təbəqələrinin müzakirəsi ilə qəbul edilib. Birmənalı şəkildə qeyd etmək olar ki, "Siyasi partiyalar haqqında" Qanunun ölkəmizdə həyata keçirilən islahatların davamıdır. Q. İbadoğluya qrant, qonorar müqabilində islahatları hədəfə çevirmək, Azərbaycan reallıqlarını təhrif etmək barədə tapşırıq verən xarici dairələr də bunu yaxşı bilirlər. Sadəcə, qəbul və həzm edə bilmirlər.

### Q.İbadoğlu ABŞ-da əli ətəyindən uzun qayıdacaq

Şübhəsis ki, Q.İbadoğlu Qanunu hədəf seçməsinin səbəbləri var. Birincisi "Azərbaycan Demokratiya və Rifah" adlı partiyanı siyasi arenaya çıxara biməsi və bu yaxınlarda partiyanın buraxıldığını ylan etdi. Çünki, qanuveiciliyə "ADR" ın fəaliyyəti üçün 5 min imza toplanılmalıdır. Yəni inadırıcı deyil ki, yedək partiya qismində çıxış edən və daim fəaliyyətini dövlətçilik maraqlarına qarşı quran partiyaya kimsə dəstək versin. Təbii ki, 5 min imza toplaya bilməyəcəyi təqdirdə "ADR" siyasi arenada fəaliyyət göstərmək imkanından məhrum olacaq. Bunu Q,İbadoğlu yaxşı anladığından qanunla bağlı hay-küy salıb, şantaş metodundan istifadə edir. Düşünür ki, bununla ənənəvi qərəzli beynəlxalq təşkilatların diqqətini özünə cəlb etməklə onlardan dəstək almağa çalışır. Ancaq niyyətini reallaşdıra bilməyəcək. Çünki, Qanunun hazırlanması və qəbulu prosesində dünyanın 24 ölkəsinin təcrübəsindən istifadə olunub, 47 siyasi partiyadan 250-dən çox təklif Milli Məclisə yazılı formada təqdim edilib, parlamentdə təmsil olunan müxtəlif partiyaların nümayəndələri Milli Məclisin komitə və plenar iclaslarında 100-dən çox təklif irəli sürüblər və nüfuzlu beynəlxalq təşkilatların rəy və təklifləri nəzərə alınmaqla qəbul edilib. Bundan sonra Q.İbadoğlunun və digərlərinin hay-küy qaldırması qeyd etdiyim kimi onların xarici sifarişlər almalarından irəli gəlir. Əminəm ki, Q.İbadğlu ABŞ-da çox qala biməyəcək. Bir gün ondan imtina olunacaq və o əli ətəyindən uzun Azərbaycana qayıdacaq.

**İ.ƏLİYEV**

# "İctimaiyyət ekologiyanın qorunması ilə bağlı ciddi tədbirlər görür"



"Dünən cənab Prezident ölkənin sosial-iqtisadi inkişafının 6 aylıq yekunlarına dair müşavirədə bir çox ciddi məsələlərə toxundu. O cümlədən burada ekoloji məsələlərə də münasibət bildirildi. Cənab Prezident Ermənistan tərəfindən bizim ekologiyamıza ciddi zərər vurulduğunu və prosesin davam etdiyini bildirdi". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Musa Quliyev deyib.

Onun sözlərinə görə, 30 il ərzində Şərqi Zəngəzur və Qarabağı işğal altında saxlayan ermənilər bu ərazilərdə bizim ekoloji sərvətimizi tamamilə talayıb, dağıdıblar: "60 min hektardan çox ərazidə meşə örtüyü məhv edilmiş, ağaclar yandırılmışdır. Eyni zamanda təbii sərvətlərimizi həm də talan edərək ekologiyaya ciddi zərər vurublar.

Hazırda Ermənistan Naxçıvanla sərhəddə ağır metallurgiya zavodunun inşasına başlamışdır. Hansı ki, bu zavoddakı tullantılar Arpa çayına tökülməsi və onun vasitəsilə Naxçıvan ərazisindən keçərək, Araz çayını çirkləndirməsi təhlükəsi çox böyükdür. Bununla əlaqədar cənab Prezident öz etirazını bildirmiş və bunun beynəlxalq konvensiyalara ziddi olduğunu söyləmişdir. Azərbaycanın müvafiq QHT-ləri də məsələyə öz etirazlarını bildiriblər.

Şübhəsiz ki, bu məsələdə də Azərbaycanın Ermənistanı məhkəməyə vermək, təzminat tələb etmək, beynəlxalq hüququ təmin etmək imkanları var. Bu istiqamətdə də işlərin görülməsi üçün cənab Prezident hökumət qarşısında tapşırıqlar qoymuşdur.

Azərbaycan ictimaiyyəti ekoloji sabitliyin qorunması ilə bağlı ciddi tədbirlər görür. Xüsusilə ötən ilin sonlarına doğru başlayan və 3 aydan çox davam edən ekoaksiya ekoloji sabitliyi təmin etmək baxımından böyük bir rol oynadı. Dünənki müşavirə zamanı da cənab Prezident bu məsələlərlə əlaqədar çox ciddi tapşırıqlar verdi".

# Heydər Əliyev irsi xalqımızın milli sərvətidir




"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

İyulun 12-də YAP Goranboy rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Goranboy rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.



# Fransa necə bölünür?

***Fransada iyunun 27-də 17 yaşlı yeniyetmənin polis tərəfindən öldüeülməsindən sonra ölkədə baş verən iğtişaşların dərslərini müzakirə edirlər. Qarşıdurmaların nəticəsi Fransa cəmiyyətində uzun müddətdir davam edən ziddiyyətləri, müzakirələrə səbəb olan bir çox fikirləri üzə çıxardı və ən azı Fransanın daxilindəki münasibətləri ifşa etdi. Altı gecə Fransanın bir çox yerlərində əsasən şəhərətrafı qəsəbələrin gənc sakinləri tərəfindən təşkil edilən iğtişaşlar ölkənin birinci və ikinci dərəcəli insanlara bölündüyünü də bəlli etdi. Sosial şəbəkələr vasitəsilə təşkil edilən soyğunçuluq və polislə dava gənclərin Fransada asayiş keşikçilərinə münasibətindən qaynaqlandığını da deyə bilərik.***



Altı gecə davam edən iğtişaşlar ölkəni silkələdi




Qarşıdurmalarda iştirak edənlər qanunsuz əməlləri ilə sanki əyləniblər. Üstəlik, bu qanunsuzluqları onlar məhz yaşadıqları yerdə törədiblər. Bununla da Fransa hakimiyyətinə adekvat cavab veriblər. Birbaşa zərər yüz milyonlarla avro ilə ölçülür, dolayı zərər isə əlli milyarda çatır.

Yeri gəlmişkən, etirazçılar davranışı bir çox fransızı məyus edən prezident Emmanuel Makronu (HuffPost üçün 6 iyul YouGov sorğusuna görə, respondentlərin 79%-i ölkə başçısının "qeyri-qənaətbəxş" olduğunu düşünürdü) "vəzifədən kənarlaşdırılmağa" çağırıblar.. Siyasətçilərin, fəalların və Makronu qəbul etməyənlərin sayı isə hər gün çoxalır, başqalarını da baş verənlərdən dərs almağa çağırırlar. Düzdür, cəmiyyətdə əldə edilən nəticələr diametral şəkildə əks görünür.

Məsələn, "İtaətsiz Fransa" (LFI) partiyasının rəhbərlik etdiyi ifrat solçuların fikrincə, irqçilik və zorakılıq bataqlığında olan polisdə islahatların aparılması lazımdır. Bununla belə, solçu radikalların hər şeyi polisin üzərinə yıxmaq cəhdi hətta LFI-nın bəzi sadiq müttəfiqləri arasında da dəstək tapmır, onlar partiyanın rəhbəri Jan-Lyuk Mylenşonu "Hüquqi İmperatorluğun ən mühüm institutlarına zərbə vurmaqda" ittiham edirlər.

Hüquq-mühafizə orqanlarının əməkdaşlarının və ictimai rəyin tərəfində duran sağçı partiyalar tərəfindən polisə dəstək gözlənilir. "Parisien" qəzeti üçün iyulun 8-də keçirilən OpinionWay sorğusu polisə inamın ən yüksək səviyyəsini (73%) göstərib. Təəccüblü deyil ki, bəlkə də bu əhval-ruhiyyəni gözləyərək, Emmanuel Makron iyulun 3-nə keçən gecə böhran qərargahının iclasından dərhal sonra daxili işlər naziri Gerald Darmanin ilə onları dinləmək, təşəkkür etmək və dəstəkləmək üçün paytaxtın XVII rayonundakı kazarmada polislərlə görüşə gedib.

### Sağçıların miqrantlara ultra-münasibəti

Eyni zamanda, Gerald Darmanin nəzarətsiz immiqrasiyanın iğtişaşlara təkan verməsi ilə bağlı sağçıların ittihamlarını qəbul etməyib. Senatorlarla danışan nazir belə izah edib ki, həbs olunanların 90%-i fransızdır və onların adları ərəb və ya afrikalı deyil, çünki "bir çox Kevin və Mateo həbsdədir". Buna ifrat sağçı "Milli Həmrəylik" parlament fraksiyasının lideri Marin Le Pen "France 2" televiziyasının efirində cavab verib ki, iğtişaşların səbəbi açıq şəkildə "Fransaya qarşı nifrətin ifadəsidir". Xanım Le Pen daxili işlər nazirinin məlumatlarını sorğu-sual etmədən: "O, yalan demir, lakin o, yaxşı bilir ki, bu iğtişaşlarda iştirak edən insanların böyük əksəriyyəti özlərini kənar adamlar və ya əcnəbilərin övladları kimi hiss edirlər. Bu, bizim ölkədə assimilyasiya problemidir. Bu, tam uğursuzluqdur", deyib.

Hətta bir çox mötədil siyasətçilər assimilyasiya strategiyasını uğursuz hesab edirlər. Eyni zamanda, üsyançıların, onların fikrincə, onları qidalandıran əli dişləmələrinə təəccüblənirlər. Əlcəzair əsilli hüquqşünas və Respublikaçı partiya üzvü Amin Elbahi xatırladıb ki, "dövlət şəhərətrafı ərazilərə subsidiyalar tökür və 1990-cı illərdən bəri şəhərətrafı ərazilərə 90 milyard avro sərmayə qoyub". O, "yoxsulluq bəhanəsi ilə iğtişaşlara haqq qazandırmaqdan" imtina edib. Daha sağçı Erik Zemmur da cənab Elbaçi ilə razılaşıb və qeyd edib ki, şəhərətrafı ərazilər sosial problemlər diqqət mərkəzindədir.

Digər tərəfdən isə şəhər kənarında sosial prosesləri araşdıran tədqiqatçılar o qədər də yüksək kateqoriyalı deyillər. Renn universitetinin müəllimi və alimi, "Şəhərətrafı dünya" kitabının müəllifi Sami Zeqnani iğtişaşlardan deyil, "üsyan"dan danışmağa üstünlük verir. Onun fikrincə, gənclər kitabxanaları, məktəbləri, idman salonlarını real həyatı ikinci dərəcəli əvəzedici hesab edərək ətrafdakı hər şeyi məhv edir və öz şəhərlərinə "çiçəklənənlərin" onlara ünvanladığı sosial nifrət hissini köçürürlər. Söhbət yeniyetmələrin avtoaqressiyasına bənzər dərin psixoloji travmasından gedir, səbəbsiz deyil ki, "üsyançıların" orta yaş həddi cəmi 17-dir.

### 17 yaşlı fransız əsilli əlcəzairli necə öldürüldü?

Bu arada, iyunun 27-də Nanterredə 38 yaşlı polisin 17 yaşlı fransız əsilli əlcəzairli Nahel Merzuku güllələyərək öldürməsi ilə bağlı versiyalar var. Müstəntiqlər hadisə vaxtı avtomobildə olan və qarşıdan gələn məhkəmə prosesində şahid qismində iştirak edəcək iki sərnişini və müdafiə tərəfinin tələblərinə baxmayaraq, Parisdəki Sante həbsxanasında məhkəməni gözləyən polisin özünü dindiriblər.

Təbii ki, versiyalar bir-birinə ziddir. Nahelin dostları heç bir səbəb olmadan dayandırıldığını iddia edirlər. Onların sözlərinə görə, polislər özlərini kobud aparıblar və onlardan biri guya "başına güllə dəyəcək" deyib. Digər hüquq-mühafizə orqanı əməkdaşı, versiyaya görə, həmkarını "Onu öldür" deyə təxribata çəkib.

Şahidlər bildiriblər ki, polis tapançanın qundağı ilə sürücünü vurmaq istərkən avtomobil yerindən tərpənib və sükan arxasında olan Nahelə bundan sonra atəş açılıb.

Polis izah edir ki, avtomobil yol hərəkəti qaydalarının çoxsaylı və kobud şəkildə pozulması (bu, kameraların ifadələri ilə təsdiqlənir) və gərgin təqib nəticəsində saxlanılıb, bu zaman yalnız möcüzəvi şəkildə başqalarına zərər dəyməyib. Polis sürücünün pəncərəsi yanında dayanıb, silahı hazır vəziyyətdə saxlasa da, öldürməklə hədələməyib. "Başından vurulacaqsan" ifadəsini həqiqətən də kamera görüntülərində görmək olar, lakin bunu dəqiq kimin dediyini söyləmək mümkün deyil.

Ardı Səh. 14

# Fransa necə bölünür?











Əvvəli-Səh-13

Və ən əsası, polis əmin edib ki, tapançanı atəş açmaq yox, ancaq qorxutmaq üçün əlində tutub. Nə qədər qəribə görünsə də, burada iki ziddiyyətli versiya var - təsadüf. Sürücü səhvən əyləci buraxıb, maşın səhvən qabağa gedib, polis təsadüfən atəş açıb. Yeri gəlmişkən, bundan hətta iğtişaşlara səbəb olan şəbəkədəki yazıdan da şübhələnmək olar. Videoya diqqətlə baxsanız, hər iki versiya həqiqət kimi görünə bilər.

## Fransada dini və irqi dözümsüzlük

Qərb ölkələri çoxdan hər kəsi Çin və Rusiya ilə qorxudur, onların fikrincə, totalitarizm və dissidentlərin gecə-gündüz müşahidəsi çiçəklənir. Lakin Fransadakı son qanunvericilik dəyişiklikləri bu ölkənin vətəndaşlarını Corc Oruellin "1984" romanı dünyasına yaxınlaşdıran tədbir kimi görünür. Söhbət istənilən elektron cihazdan - telefondan, noutbukdan, avtomobildən, hətta GPS qəbuledicisi varsa, hətta çaydandan da geolokasiya məlumatlarını yandırmağa və silməyə imkan verən qanun layihəsindən gedir. Cihazlar audio və video çəkiliş üçün uzaqdan da aktivləşdirilə bilər.

Yeni tədbir cəzası 5 ildən çox olan cinayətləri törətməkdə şübhəli bilinən şəxslərə şamil edilir. Eyni zamanda, terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizəyə xüsusi diqqət yetirilir və polisə yeni səlahiyyətlər verən bəndlərin özləri Fransa hüquq sistemində daha geniş islahatların aparılması layihəsində "gizlidir". Belə ki, Parlament səsvermə zamanı bütün dəyişiklikləri "paket"lə qəbul edərək birinci oxunuşda təsdiq edib. İyun ayında Senat da sənədə "bəli" deyib.

Nəticədə, bu həftə keçirilən debatda prezident Emmanuel Makronun tərəfdarları "cinayətin xarakteri və ağırlığı ilə əsaslandırılan" vəziyyətlərdə uzaqdan casusluqdan istifadə hüququnu məhdudlaşdıran düzəliş təqdim etdilər. Bununla belə, bu müddəanın praktikada hər hansı tətbiqi hakim tərəfindən təsdiqlənməlidir və müşahidənin ümumi müddəti altı aydan çox ola bilməz. Ancaq bir istisna var: həkimlər, jurnalistlər, hüquqşünaslar, hakimlər və parlament üzvləri kimi peşələrin nümayəndələri yeni qanuna tabe olmayacaqlar.

Dəyişikliklər bu cür metodların geniş tənqid olunmasına baxmayaraq təsdiq edilib. Paris Vəkillər Kollegiyası Şurası bildirib ki, tədbir "ictimai asayişin qorunması ilə əsaslandırıla bilməyən şəxsi həyatın toxunulmazlığına hörmətin xüsusilə ciddi pozuntusudur". Hətta fransız polislərindən biri də bu işə ehtiyac olduğuna şübhə edib: "Quldurlar buna uyğunlaşacaq, kamerasız telefonlar alacaqlar". Qanunun əleyhdarlarının müdafiə edə bildikləri yeganə şey, cinayətin şiddətini 10 ilə qədər artırmaq idi, ondan sonra geolokasiya aktivləşdirilə bilər.

Qeyd edək ki, Fransa uzun müddətdir ki, qanunlarını sərtləşdirmək yolundadır və onların bir çoxu insan haqlarının pozulması kimi dəyərləndirilir. Məsələn, 2021-ci ildə "Qlobal təhlükəsizlik haqqında" qanun qəbul edilib ki, bu qanunda vəzifə yerinə yetirən hüquq-mühafizə orqanlarının əməkdaşlarının kimliyi müəyyən oluna biləcək şəkildə çəkilişi qadağan edilib. Görünür, belə bir tədbir polisi qorumalıdır, amma fikirləşsəniz, cinayətkarın hüquqlarınızı pozduğunu necə sübut etmək olar?

May ayında hakimiyyət bu müşahidə üçün süni intellektdən istifadə etməyə icazə verən başqa bir qanun qəbul edib. Söhbət 2024-cü ildə Parisdə keçiriləcək Olimpiya Oyunları zamanı videomüşahidədən gedir, bu müddət ərzində süni intellekt qeyri-standart və təhlükəli vəziyyətləri, o cümlədən döyüşlər və vandalizm hallarını müəyyən etmək üçün xüsusi alqoritmlərdən istifadə edəcək. Problem hüquq müdafiəçilərini o qədər hiddətləndirib ki, hətta məşhur Amnesty İnternational təşkilatı da bununla məşğul olmağa başlayıb.

Beləliklə, Fransa özünü bütün dünyada insan hüquqlarının müdafiəçisi kimi təqdim etsə də, Olimpiadalar zamanı süni intellektlə kütləvi nəzarəti qanuniləşdirmək qərarı məxfilik, etiraz, toplaşmaq və ifadə azadlığı hüquqlarına hərtərəfli hücuma səbəb olacaq. Bundan əlavə, miqrantlar, qaradərililər və rəngli insanlar texnologiyalarından qeyri-mütənasib şəkildə istifadə olunmaqla təcrid ediləcəklər. Bu isə Fransanın iç üzünü göstərməyə yetəcək.

***V.VƏLİYEV***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qarabağı gecə-gündüz qazıb istismar ediblər



*Ermənistan tərəfindən işğal edilən Azərbaycanın Dağlıq Qarabağ MR və ona bitişik Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam (rayon mərkəzi və ərazinin böyük hissəsi), Füzuli (rayon mərkəzi və ərazinin böyük hissəsi) rayonları qəhrəman Azərbnaycan ordusu tərəfindən işğaldan azad edildikdən sonra məlum oldu ki ermənilər burada daşı daş üstən qoymayıblar. Həm milli-mənəvi abidələrin məhvi, həm ekoloji terror, həm də torpqalarımızın vəhşicəsinə talanması faktları aşkarlandı.*



## İşğalda olan sərhədyanı ərazilərdə qaçaqmalçılıq ediblər

İşğalda olduğu müddətdə Azərbaycan-İran sərhədinin nəzarətsiz qalan ərazilərində qaçaqmalçılıq, bəzi hallarda isə narkotik vasitələrin daşınması üzrə əməliyyatlar sərbəst şəkildə həyata keçirilib. Azərbaycanın işğal olunmuş ərazilərində olan nadir ağaclar işğal olunmuş sərhədlərdən qonşu İran və Ermənistana daşınıb.

İşğal olunmuş ərazilər Azərbaycanın sənayesində və tikintisində böyük əhəmiyyət kəsb edən müxtəlif növ tikinti materialları ilə çox zəngindir. Ağdam rayonunda yerləşən, 140 milyon ton əhəngdaşı və 20 milyon ton gil ehtiyatı olan Çobandağ , 25 milyon ton gil ehtiyatı olan Şahbulaq, 45 milyon ton gil ehtiyarı olan Boyəhmədli və başqa yataqlar var. Həmçinin, iri tikinti daşı yataqları Xankəndində, mərmər yataqları isə Harovda yerləşir.

## Qarabağın çoxşaxəli geoloji kəşfiyyata ehtiyacı var

İşğaldan əvvəl Qarabağ ərazisində 63 təsdiqlənmiş faydalı qazıntı yatağı adı ilə məlum idi. Onlardan 5 qızıl filizi, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 kömür, 6 gips, 4 vermikulit, 1 hasilatı üçün xammal. soda , 12 dekorativ və bəzək daşları (obsidian, mərmər oniks, jasper və s.), 10 tikinti daşı və əhəngdaşı, 21 üzlük daşı, 9 saxsı gil, 20 sement xammalı, 8 müxtəlif növ tikinti daşları, 6 əhəng əhəngi, 10 çınqıl süxurları, 4 tikinti qumu, 1 perlit, 8 vulkanik pemza, 16 yeraltı şirin su anbarı və 11 mineral su mənbəyi yataqları vardı. Ümumiyyətlə, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunana qədər Azərbaycanın bu ərazilərində müxtəlif filiz və faydalı qazıntıların 561 yatağı, təzahürü və perspektivli sahələri aşkar edilmişdi.





Sənaye əhəmiyyətli təhlükəsizliyini və mövcud filiz və qeyri-metal faydalı qazıntı yataqlarının perspektivlərini qiymətləndirmək üçün burada geoloji kəşfiyyat işləri aparmaq lazımdır. Çünki illərdir erməni vandalları tərəfindən vəhşicəsinə istismar edilməsi bu bərəkətli torpaqların daxili qatları araşdırılmalı, faydalı qazıntı ehtiyatı hesablanmalıdır.

## Qarabağ yenidən dirçələcək

Kəlbəcər rayonu ərazisində yerləşən İstisunun mineral suları əlverişli qaz-kimyəvi tərkibi, yüksək temperaturu, böyük təbii ehtiyatları ilə seçilir. Bu bulağın suları həm xarici, həm də daxili xəstəlikləri müalicə edir. Ötən əsrin 80-ci illərində İstisu bulağında böyük kurort və mineral su qablaşdırma zavodu fəaliyyət göstərirdi. Bu zavod gündə 800 min litr su istehsal edirdi.

Əsrlər boyu Qarabağın Dağlıq hissəsi aran Qarabağla sıx iqtisadi əlaqədə inkişaf edib. Çay dərələri boyunca uzanan yollar bu iki ərazini iqtisadi cəhətdən möhkəm bağladı. Bütün bu tarixi-coğrafi reallıqlara baxmayaraq, Dağlıq Qarabağın ermənilər tərəfindən işğalı regionun əhalisi və iqtisadiyyatı üçün çox ciddi problemlər yaratdı. Həm iqtisadiyyatımızın əhəmiyyətli bir təminatçısını itirdik, həm də 1 milyondan çox əhali öz doğma yurdunu tərk etmək məcburiyyətində qaldı.

Qarabağ işğaldan azad edildi, amma torpaqlarımıza verilən zərərin bərpası üçün bizə hələ uzun illər lazım olacaq.İşğaldan azad edildikdən sonra Qarabağda tarixi abidələrin bərpası işlərinə başlandı, dağıdılmış abidələr, məscid və ziyarətgahlar yenilənir, təbii yataqlar bərpa edilir. Qarabağda müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyasına uyğun bərpa işləri sürətlə davam etdirilir. Çox uzaq olmayan gələcəkdə Qarabağ yenidən Azərbaycan iqtisadiyyatına önəmli dərəcədə töhfə verəcək.

***Lalə Mehralı***

## "Böyük Qayıdış proqramının uğurla icrası iradə tələb edir"



"Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə də aydın oldu ki, ölkəmizin dayanıqlı inkişafı təmin edilib. Qeyri-neft sektoru inkişaf etdirilib, Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində işlər, eyni zamanda iqtisadi və sosial sahələrdə islahatlar davam etdirilib". Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayeva deyib.

Onun sözlərinə görə, 2020-ci il 44 günlük vətən müharibəsindən sonra regionda yeni reallıqlar yaranıb və Azərbaycan bütün gücünü, resurslarını işğaldan azad olunmuş ərazilərin bərpasına yönəldib: "İki il yarım ərzində Qarabağ və Şərqi Zəngəzur ən inkişaf etmiş bölgəyə çevrilməkdədir. Azərbaycan heç bir yerdən yardım almadan, öz maliyyə imkanları hesabına Böyük Qayıdış Proqramını uğurla icra edir". Deputat sözlərinə davam edərək bildirib ki, son iki il yarımın mənzərəsinə baxsaq, işğaldan azad olunmuş ərazilərdəki canlanma xüsusi diqqət çəkir: "Abadlaşan kənd şəhərlər, öz dədə-baba yurduna qayıdan soydaşlarımız, bir sözlə, bölgə 30 illik işğalın fəsadlarından təmizlənməkdədir. Təsadüfi deyil ki, 30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməlqoymasında şəxsən Prezident İlham Əliyev iştirak edib. Baş planlar hazırlanıb təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır. Dövlət başçımızın da söylədiyi kimi, ilk növbədə, infrastruktur layihələri icra olunur. Çünki bu layihələr icra edilmədən biz vətəndaşları qaytara bilmərik. Cəmi 8 ay ərzində Laçın şəhərinin böyük hissəsinin tamamilə bərpa edilməsi, yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanması əsl nümunədir. Ölkə başçısı bir daha bəyan etdi ki, Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq. Ümumiyyətlə, Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Bu, bərpa prosesinin miqyasının böyüklüyünü göstərir. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin olunacaq. Eyni zamanda bərpa prosesi zamanı tarixi-mədəni irsin mühafizəsinə xüsusi diqqət yetirilməsi təqdirəlayiq haldır. Belə ki, Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən işlər xüsusi əhəmiyyət kəsb edir.

Bir sözlə, Qarabağın və Şərqi Zəngəzurun bərpası bu gün əsas prioritetdir. Amma bununla paralel olaraq, Prezident İlham Əliyev bütün ölkədə infrastruktur layihələrinin reallaşdırılmasını diqqətdə saxlayır. Bütün ərazilərin sosial-iqtisadi inkişafı təmin olunur. Bu ilin 6 ayının yekunları da göstərir ki, Azərbaycan qarşıya qoyduğu hədəflərə çatır. Görülən işlərin miqyası isə iqtisadi güc, siyasi iradə tələb edir. Bu mənada Azərbaycan əsl nümunə sərgiləyir".

***Ləman Sərraf***

SON SƏHİFƏ

# SƏS

13 iyul 2023-cü il

# “Ailə institutunda xoşagəlməz dəyişikliklər baş verir”

*“Valideynlər uşaqlarına ona görə hövsələsizdirlər ki, cəmiyyətdə bizim istədiyimiz və ya istəmədiyimiz bir çox dəyişikliklər baş verib. Lakin bu dəyişiklikləri nəzərə almaq istəmirik. Belə bir vaxtda ailə institutunun özündə xoşagəlməz dəyişikliklər baş verməkdədir. Bunun nəticələri də göz qabağındadır. 2014-cü ildən başlayaraq boşanmaların sayı sürətlə artmaqdadır.*





**SOSİOLOQ DANIŞDI**

Tez-tez ailədaxili qətl hadisələrinin də şahidi oluruq. Hətta bu cinayətlər yalnız ər-arvad deyil, ata-oğul, iki qardaş və s. kimi ailə üzvləri arasında da baş verir. Təbii ki, cəmiyyətdə dəyişiklik olmalıdır. Bütün ölkələrdə belə dəyişikliklər baş verir. Bizim problemimiz ondadır ki, bu dəyişikliklərlə bağlı adekvat olaraq işlər görmürük”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Əhməd Qəşəmoğlu deyib.

Onun sözlərinə görə, cəmiyyətin mürəkkəbləşdiyi bir zamanda ailə institutu başlı-başına buraxıla bilməz: “Ailələrlə bağlı müəyyən işlər görülür. Amma bu işlər metodoloji baxımdan düzgün aparılmır. 20-30 il bundan öncə ailə problemləri ilə bağlı hansı işlər görülübsə, ona oxşar işlər görülməyə çalışılır. Elm deyir ki, cəmiyyətdə yaranan problemlərin həlli üçün məsələni dərindən bilən mütəxəssislər tərəfindən xüsusi fəaliyyət proqramları, texnologiyalar hazırlamaq lazımdır. Hər bir cəmiyyətin öz xüsusiyyətlərini nəzərə alaraq ailə problemlərini həll etmək üçün hökmən məxsusi fəaliyyət proqramı hazırlanmalıdır. Ölkəmizdə bu işlərə əhəmiyyətsiz bir şey kimi yanaşırlar. Ailə məsələlərini həll etmək üçün əvvəlcə onun hansı funksiyalarının olması barədə düşünmək lazımdır. Düşünməliyik ki, ailə cəmiyyətə faydalı olsun deyə nə edə bilərik”.

Sosioloq sözlərinə davam edərək bildirib ki, valideynlərin uşaqlarına qarşı hövsələsiz olmasına yalnız bir səbəb göstərmək düzgün olmaz: “Səbəblərin biri odur ki, indiki valideynlərin ailə barədə təsəvvürləri 30 il bundan qabaqkı valideynlərdən çox zəifdir. O vaxt evlənən bilirdi ki, qarşıda onu nə gözləyir, ailədə hansı vəzifələri, məsuliyyətləri var. İndi isə ailə haqqında fikirlər yayğındır. Bu səbəbdən valideynlərdə etinasızlığın səviyyəsi yuxarıdır. Eyni zamanda, valideynlər cəmiyyətdə o qədər problemlərlə rastlaşırlar ki, tam olaraq ailələrinə fikir verə bilmirlər. İstər sosial şəbəkələr, istər seriallar olsun, bütün bunlar insanın psixologiyasına təsir edən amillərdir. İnsanların davranışına təsir edən dörd mühüm amil var. İnsanın öz fitrəti, yaşadığı mühitdə baş verənlər, aldığı informasiyalar və üstünlük verdiyi dəyərlər bu amillərə daxildir. Xalq düşünür ki, bizim fitrətimiz eynidir. Amma düşünmür ki, yaşadığımız mühitdə gedən proseslər, dəyişikliklər də bizə təsir edir. Həmçinin bizə lazım olan informasiyalar çatdırılmır. İndiki dövrdə mənəvi dəyərlər bir qədər arxa plana keçib və maddi dəyərlər daha önəmli rol oynayır. Bu da valideynlərin davranışında özünü göstərir”.

*Ləman Sərraf*


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Yaşıl çay piylənmənin qarşısını alır



Pəhriz və fiziki məşğələlər arıqlamaq üçün ən səmərəli tədbirlərdir, lakin təbii otlardan hazırlanmış çaylar sağlamlıq üçün geniş spektr üstünlüklərə görə həm Şərq, həm də Qərb ölkələrində əhəmiyyətli funksional dərman hesab edilir. Onların bir çox keyfiyyətləri sırasında — diabet kimi metabolik sindromların qarşısının alınması üçün faydalı hesab edilən piylənməyə təsiridir.

Bəzi tədqiqatlar göstərir ki, yaşıl çayın visseral piyə qarşı faydası əlavələrin qəbulundan sonra artıq bir neçə həftədən sonra özünü göstərə bilər.

“Yarpaqlı göyərti, yaşıl çay və rəngli tərəvəzlər şişkinliyi azaltmağa və piysaxlama genlərinin qarşısını almağa kömək edə bilər. “MedikForum” saytının yazdığına görə, sübut olunub ki, yaşıl çayın qəbulu visseral piyləri azaldır. Bu effektlər əsasən yaşıl çayın üstün antioksidant tərkibi ilə izah olunur.

Ümumilikdə, 118 iştirakçı hər gün tərkibində 609,3 mq katexin və 68,7 mq kofein olan içkini və ya 12 həftə ərzində nəzarət içkisini qəbul ediblər. Hər bir subyektin 0, 8 və 12-ci həftələrdə qarın piy sahəsi, bədən çəkisi və tərkibi ölçülüb.

”Katexinlə zənginləşdirilmiş yaşıl çayla müalicə nəticəsində qarın visseral piy sahəsi, bədən çəkisi və bədən piyləri əhəmiyyətli dərəcədə azalıb, lakin bu təsirlər nəzarət qrupunda müşahidə olunmayıb”.

Bundan başqa, 12-ci həftədə nəzarət qrupu ilə müqayisədə visseral piy sahəsinin əhəmiyyətli dərəcədə azalması müşahidə olunub.

# Amerikalı ssenarist xərçəngin qurbanı oldu



Daha bir tanınmış incəsənət adamı xərçəngin qurbanı olub. Belə ki, amerikalı ssenarist və prodüser Menni Koto 62 yaşında, 13 ay mədəaltı vəzi xərçəngi ilə mübarizədən sonra Kaliforniyadakı evində dünyasını dəyişib.

Qeyd edək ki, Koto ”Amerikan qorxu hekayəsi”, ”Dekster” seriallarının ssenaristi və prodüseri olub. O, ”24 saat” adlı ekran işinə görə 2006-cı ildə ”Emmi” mükafatına layiq görülüb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**